

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 168 (7423) / Şənbə, 14 sentyabr 2019-cu il




## Ölkəmizdə özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açılır

PREZİDENT İLHAM ƏLİYEV SƏNAYE VƏ İNNOVASİYALAR ÜZRƏ BAKI DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

BAX: SƏH.2

Bax: səh. 5

*Mehriban Əliyeva:*

## Paytaxtımız Bakı dünyanın ən gözəl şəhərlərindən biridir

BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA KÜRDƏXANI QƏSƏBƏSİNDƏKİ 113 NÖMRƏLİ MƏKTƏBDƏ YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB



## SOCAR prezidenti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri ilə görüşüb



Bax: səh. 6

Bax: səh. 2



## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası olub

## YAP Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrləri ilə müşavirə keçirildi



Bax: səh. 7

Bax: səh. 7



Azərbaycan XİN:

## Ermənistan rəhbərliyinin destruktiv mövqeyi danışıqlar prosesinin məhv edilməsi cəhdi deməkdir


8 Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının toplantısı başa çatdı

16 Məqsədlərimizə necə çata bilərik?

# Azərbaycanda təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqətlə yanaşılır

## PREZİDENT İLHAM ƏLİYEV SURAXANI RAYONUNDA ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 208 NÖMRƏLİ MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Məlahət Əsədova dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər.

Prezident İlham ƏLİYEV: Bu məktəb əsaslı təmir olunub?

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOV: Xeyr, sökülüb, yenidən tikilib. Üç il fəaliyyətsiz olub.

Bildirildi ki, məktəbin binası 1938-ci ildə istifadəyə verilmişdi. O zaman 360 yerlik binada ümumilikdə 2 növbədə 800 şagird təhsil alırdı. Bu təhsil ocağı qəzalı vəziyyətdə olduğundan fəaliyyətini dayandırıb və müvəqqəti olaraq 140 saylı tam orta məktəbdə fəaliyyət göstərib. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən, 2019-cu ilin mayında məktəbin mövcud binası sökülərək yerində yenisi inşa olunub. 360 şagird yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub. Bir sözlə, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri, müəllimlərin isə pedaqoji fəaliyyətlə yüksək səviyyədə məşğul olmaları üçün hərtərəfli imkanlar var.











Qeyd edildi ki, məktəbdə hazırda 320 şagirdin təlim-tərbiyəsi ilə 31 nəfərdən ibarət pedaqoji kollektiv məşğuldur. Son 10 ildir ki, məktəbin şagirdlərinin 70-80 faizi ali təhsil ocaqlarına qəbul olur. Şagirdlər müxtəlif bilik, idman yarışlarında, olimpiadalarda təhsil ocağını layiqincə təmsil edirlər. Bu təhsil ocağının 10-cu sinif şagirdi güləş üzrə Avropa çempionudur.

Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sferada innovativ üsulların tətbiqi məsələsinə daim xüsusi diqqətlə yanaşılır. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bu isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmasında mühüm rol oynayır.

Prezident İlham ƏLİYEV: Təbrik edirəm. Sizə uğurlar arzulayıram.

Məlahət ƏSƏDOVA: Cənab Prezident, şagirdlər və valideynlər adından Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, kənd yerində belə bir gözəl məktəb tikdirmisiniz.

Prezident İlham ƏLİYEV: Şəhərimizin hər bir yerində məktəblər tikilir, əsaslı təmir olunur, bu proqram uğurla icra edilir. Bu məktəbin yenidən tikilməsi bizim siyasətimizi əks etdirir. Təhsil sahəsinə göstərilən diqqət, eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir. Valideynlərə də, müəllimlərə də salam söyləyin. Sağ olun.

Məlahət ƏSƏDOVA: Sağ olun cənab Prezident.

## YENİ AZƏRBAYCAN PARTİYASININ İDARƏ HEYƏTİNİN İCLASI OLUB



Sentyabrın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, iclasda Yeni Azərbaycan Partiyasının bu ilin dekabr ayında ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işləri müzakirə edilib. Həmçinin YAP İcra Katibliyinin cari ilin iyun, iyul və avqust aylarında gördüyü işlərlə bağlı hesabatı dinlənilib.

Qeyd olunub ki, bələdiyyə seçkilərinə hazırlıq işlərinə artıq start verilib və işlər təsdiq olunmuş tədbirlər planına uyğun olaraq aparılır. Cəmiyyətdə yüksək nüfuzu və zəngin təcrübəsi olan Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də uğur qazanacağına əminlik ifadə olunub.

İclasda YAP İcra Katibliyinin ötən 3 ay ərzində həyata keçirdiyi tədbirlərin xüsusi əhəmiyyəti qeyd edilib və bu tədbirlərin nəinki partiyanın, eləcə də ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyəti qeyd olunub.

İclasda, bir sıra cari məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilib.

# Ölkəmizdə özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açılır

## Prezident İlham Əliyev Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

**Sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Təhsil naziri Ceyhun Bayramov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, Təhsil Nazirliyi və Koreya Respublikasının "KT Konsorsium" şirkəti arasında imzalanan saziş əsasında 2016-cı ildə yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyaclarına hazır rəqabətqabiliyyətli kadrlar hazırlığını həyata keçirən peşə təhsili müəssisəsidir.

Mərkəzdə sənaye qurumlarında istehsal proseslərini təşkil edən və innovativ texnologiyalarla işləmək bacarığına malik olan mütəxəssislərin hazırlanması nəzərdə tutulur.





Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə yaxından tanış oldu.

Bildirildi ki, Mərkəz Koreya Respublikasının peşə təhsili modeli əsasında qurulub. Mərkəzdə nəzəri və praktiki bacarıqların formalaşdırılması üçün bütün şərait yaradılıb. Burada təhsil alanlara avtomobilə texniki xidmət göstərməkdən tutmuş İKT-nin yenilikləri əsasında formalaşan modellər öyrədiləcək. Ən müasir maddi-texniki baza ilə təchiz edilən mərkəz 8 fərqli ixtisas üzrə 1 illik proqramlarda təhsil almaq imkanını nəzərdə tutur. Tədris prosesi tam yeni formatda Koreyada təlim keçmiş ixtisaslı mütəxəssislər tərəfindən təşkil olunacaq. Bu ixtisaslar üzrə təhsilini başa vuran tələbələr üçün davamlı təhsil və geniş iş imkanları yaradılacaq. Onlar öz ixtisaslarını praktiki şəkildə reallaşdırmaq bacarıqları və vərdişlərinə yiyələnəcəklər. Səkkiz texniki ixtisasla yanaşı, Mərkəzdə qısamüddətli ixtisasartırma kursları da təşkil olunacaq. Həmçinin tələbələr beynəlxalq sertifikatlı kurslarda iştirak edə biləcəklər.

Bu cür peşə məktəblərinin istifadəyə verilməsi ali məktəblərə qəbul ola bilməyənlər üçün çox mühüm əhəmiyyət kəsb edir. Ali məktəbə qəbul ola bilməyən məzun belə peşə məktəbinə daxil olmaqla peşə vərdişlərinə yiyələnərək gələcəkdə istədiyi sahədə çalışa bilər. Bu cür layihələrin icrası peşə təhsilinin inkişafına töhfə verməklə yanaşı, məşğulluğun artırılmasında da mühüm rol oynayır.

Dövlət peşə təhsili müəssisələrinin büdcədənkənar gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasının təmin edilməsi və peşə təhsilinin inkişafında maliyyələşmə mexanizmi rolunu oynamasının həyata keçirilməsi məqsədilə Peşə Təhsilinin İnkişafı Fondu yaradılıb, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktlar hazırlanıb. Peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçirilən peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və optimallaşdırılması, müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.









2018-ci ildə regionlarda və Bakıda fəaliyyət göstərən 55 peşə təhsili müəssisəsinin bazasında 24 Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Qeyd olunan istiqamətdə daha iki mərkəzin yaradılması nəzərdə tutulub. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi artıq publik hüquqi şəxs statusu alıb. Digər Peşə Təhsil mərkəzlərinin də publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsi istiqamətində hazırlıqlar gedir. Bununla yanaşı, "Azərbaycan peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə ilkin mərhələdə 2020-ci ilədək müxtəlif istiqamətli 10 pilot peşə təhsil müəssisəsinin qurulması hədəf kimi müəyyənləşdirilib. Strateji Yol Xəritəsinə əsasən, pilot peşə təhsili müəssisələrinin müasir standartlara cavab verməsi və tələbata uyğun fəaliyyət göstərməsi üçün onların əsaslı təmiri və ya yeni peşə təhsili müəssisələrinin tikintisi nəzərdə tutulur. Dövlətimizin başçısının Sərəncamına əsasən, 2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasında və işlək peşə təhsili modelinin qurulmasında işəgötürənlərlə birgə əməkdaşlıq bu sahənin inkişafı üçün mühüm önəm kəsb edir. Ümumilikdə bu il ərzində peşə təhsili müəssisələrinin 420 nəfərlik mühəndis-pedaqoji heyəti üçün 29 təlim həyata keçirilib. Peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN xidmət" mərkəzlərində, "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə isə müvafiq peşə təhsili müəssisələrində ödənişsiz şəkildə və elektron qaydada həyata keçirilib.

Bütün bunlar isə peşə təhsili sahəsinə birbaşa müsbət təsir göstərməklə özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açır.

# Paytaxtda müasir yol infrastrukturunun qurulması sahəsində silsilə tədbirlər reallaşdırılır

## Prezident İlham Əliyev Bakıda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yenidənqurma tədbirləri barədə məlumat verdi.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 mart tarixli müvafiq Sərəncamına əsasən Bakının Nərimanov rayonu ərazisində şəhər əhəmiyyətli Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb və bu işlər qısa müddətdə yüksək səviyyədə yerinə yetirilib. Molla Cümə küçəsində, Həsən Əliyev və Yusif Vəzir Çəmənzəminli küçələrinin bir hissəsində, həmçinin Molla Cümə və Əhməd Rəcəbli küçələrini birləşdirən yollarda yeni və müasir yol infrastrukturu yaradılıb. Yenidən qurulan yolların ümumi uzunluğu 6 kilometrdir.



Paytaxtda yeni yolların salınması, yolötürücülərin, yeraltı və yerüstü piyada keçidlərinin, çoxmərtəbəli avtomobil dayanacaqlarının layihələndirilməsi və tikilməsi, mövcud yol qurğularının təmiri və yenidən qurulması sahəsində silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər görülən işlər nəticəsində paytaxtda və ətraf qəsəbələrdə yeni alternativ yol infrastrukturları formalaşdırılıb, şəhərin mərkəzindən bir sıra istiqamətlərə, o cümlədən ətraf qəsəbələrə rahat və sürətli gediş-gəliş təmin edilib, müəyyən qisim yollarda avtomobillərin hərəkətində məhdudiyyətlər və ləngimələr aradan qaldırılıb, bəzi yolların buraxılış qabiliyyəti artırılıb, yoldan istifadə asanlaşıb, paralel yeni yollar açılıb və sair irəliləyişlərə nail olunub. Ümumilikdə, 2003-cü ildən bəri respublikamızda 16 min kilometrdən çox avtomobil yolu yenidən qurulub, bərpa və təmir edilib. Bunun 500 kilometrdən çox hissəsi 2019-cu ilin 8 ayında reallaşdırılıb. Bu ilin sonuna ölkəmizdə yenidən qurulan, bərpa və təmir edilən yolların uzunluğu 17 min kilometrdən çox olacaq. 2003-cü ildən bəri təkcə Bakıda avtomobil yollarının 1500 kilometrdən çox hissəsində yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib. Bunun 200 kilometrdən çoxu 2019-cu ilin 8 ayında reallaşdırılıb.



Sonda xatirə şəkli çəkdirildi.

# Yeni park sakinlərin sevimli istirahət guşələrindən birinə çevriləcək

## Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanıda yeni salınan parkda yaradılan şəraitlə tanış olub





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 13-də Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dörd ay əvvəl paytaxtın Sabunçu rayonunun Kürdəxanı qəsəbəsinə gələn Birinci vitse-prezident burada görülməsi vacib olan sosial və infrastruktur işlərinin qısa vaxt ərzində həyata keçirilməsi ilə bağlı göstərişlərini vermişdi.





Bunlardan biri qəsəbə sakinləri üçün salınan yeni istirahət parkıdır.

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev parkda yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi. Yeni park Zeytunluq adlanan ərazidə yerləşir. Ərazisi 2,6 hektar olan bu istirahət məkanındakı zeytun ağacları 30-35 il əvvəl əkilib. Həmişəyaşıl, insan sağlamlığı üçün faydası hamıya bəlli olan bu qiymətli bitkilərə xüsusi qulluq göstərilib.

Onu da deyək ki, bu vaxta qədər Kürdəxanı qəsəbəsində park olmayıb, ərazi baxımsız vəziyyətdə idi. Bu gündən isə istirahət üçün lazımi şəraitlə təmin edilən yeni park sakinlərin istifadəsindədir. Ərazidə abadlıq işləri aparılıb, "Zeytun" kafesi inşa edilib.

Heç şübhəsiz ki, Kürdəxanı qəsəbəsində yaradılan yeni park sakinlərin sevimli istirahət guşələrindən birinə çevriləcək.

# *Mehriban Əliyeva:* Paytaxtımız Bakı dünyanın ən gözəl şəhərlərindən biridir

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA KÜRDƏXANI QƏSƏBƏSİNDƏKİ 113 NÖMRƏLİ MƏKTƏBDƏ YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

**Sentyabrın 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 nömrəli tam orta məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident əvvəlcə sıralarında məktəbin məzunlarının da olduğu şəhid Kürdəxanı sakinlərinin xatirəsinə ucaldılan abidəyə baxdı.

Qeyd edək ki, 1971-ci ildən



fəaliyyətə başlayan bu məktəbin binasında cari təmir işləri 2006-cı ildə aparılıb. İki il sonra - 2008-ci ildə şagird sıxlığı nəzərə alınaraq 300 yerlik əlavə korpus tikilib.

Bu ilin mayında Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə təhsil ocağı yenidən qurulub.

Əvvəllər fənn kabinetləri yararsız vəziyyətdə idi, bu isə tədris prosesinin keyfiyyətinə maneçilik törədirdi. Ancaq yeni tədris ilində bu problem aradan qaldırıldı.

Təhsil ocağının sinif otaqları, fənn kabinetləri, informatika-linqafon otağı, kitabxana, akt və idman zalları ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, hər iki korpusda 47 sinif otağı, 2 informatika və 1 linqafon otağı, kimya, biologiya, fizika fənn kabinetləri, akt, idman və musiqi zalları istifadəyə verilib.

Təmirdən əvvəl məktəb 1150 şagird yerlik olub. Hazırda əlavə sinif otaqlarının artırılması hesabına burada 1200 şagirdin təhsil alması üçün şərait yaradılıb. Təhsil ocağının həyətində yaşıllıq sahəsi salınıb, abadlıq-quruculuq işləri aparılıb. Məktəbin həyətində müasir tələblərə cavab verən qaçış və futbol meydançası da yaradılıb.

Məktəbin kollektivi ilə görüşüb, onlara yeni dərs ilində uğurlar arzulayan Birinci vitse-prezident Mehriban Əliyeva dedi:

-Mən bu gün burada olmaqdan çox şadam. Yəqin bilirsiniz ki, cari ilin may ayında hörmətli Telman Əliyev məni öz evinə dəvət etmişdi və həmin ay qızımla Kürdəxanı qəsəbəsində oldum. Çay süfrəsi ətrafında qəsəbədə olan problemlər haqqında geniş söhbət etdik. Həmin vaxt bu məktəbə də baxdım və sakinləri narahat edən məsələlərin aradan qaldırılması üçün lazımi tapşırıqlar verildi. Mən çox şadam ki, 113 nömrəli məktəb qısa bir zamanda, yəni, üç ay ərzində, təmir edilib, amma demək olar ki, müasir səviyyədə yenidən qurulub. Əminəm ki, bu məktəb yeni tədris ilində həm şagirdlərə, həm də onların valideynlərinə xoş bir hədiyyə olacaq.



Məktəb 1971-ci ildə inşa olunub, 2008-ci ildə əlavə korpus tikilib və bu vaxt ərzində bir neçə dəfə təmir də olunub. Amma buna baxmayaraq, çox yararsız vəziyyətdə idi. İndi isə çox gözəl, müasir, bütün lazımi avadanlıqla təmin olunmuş yeni bir məktəbdir. Burada 1200 şagird təhsil ala bilər. Amma mən yenə də sakinlərin xahişini və şagirdlərin 2000-dən çox olduğunu nəzərə alaraq hesab edirəm ki, Kürdəxanı qəsəbəsində yeni bir məktəbin tikintisinə ehtiyac var. Tapşırıqlar verilib və qısa bir zamanda yeni məktəbin tikintisinə başlanılacaq.







Bundan əvvəl gözəl bir parkın açılışında iştirak etdim. Ümumi sahəsi 2,6 hektar olan park vaxtilə Zeytunluq adlanan ərazidə yerləşir. Sakinlərin belə bir xahişi var idi ki, asudə vaxtı keçirmək üçün bu cür bir yer olsa, çox gözəl olar. Artıq müasir, gözəl, tamamilə yenidən qurulmuş park sakinlərin istifadəsinə verilib. Ən vacibi isə odur ki, bütün ağaclar saxlanılıb, heç bir ağac kəsilməyib. Eyni zamanda, müasir işıqlandırma sistemi, uşaqlar üçün oyun meydançası, müasir kafe qurulub. Mən çox şadam ki, biz belə qısa zamanda bu işlərin nəticəsini görürük.

Bu, Azərbaycan Respublikasının Prezidenti tərəfindən aparılan siyasətin nəticələridir. Paytaxtımız Bakı da bu gün dünyanın ən gözəl şəhərlərindən biridir.

Mən çox şadam və sizi təbrik edirəm. Mənim salamlarımı, hörmətimi Kürdəxanı qəsəbəsində yaşayan bütün insanlara çatdırın. Çox sağ olun.

* * *

Ümumiyyətlə, bu gün Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində quruculuq-abadlıq işləri sürətlə gedir. 12 min 200 nəfər əhalinin yaşadığı qəsəbədə qazlaşma uğurla davam edir, yol infrastrukturunun inkişafı ilə bağlı işlər görülür, küçələrin bərpası həyata keçirilir, yeni işıqlandırma sistemi quraşdırılır.

Kürdəxanı sakini Telman Əliyev və məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şirinxanım Abbasova Birinci vitse-prezidentə göstərdikləri diqqətə görə minnətdarlıqlarını bildirdilər.

Telman Əliyev: Çox sağ olun ki, təşrif buyurub gəldiniz. Böyük işlər görmüsünüz. Yollarımız çox gözəldir. Çox sağ olun. Allah Sizə, ailənizə cansağlığı versin.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun. Yollar barədə deyə bilərəm ki, qəsəbədaxili 115 küçə, ümumilikdə 70 kilometr uzunluğunda yollar tamamilə yenidən qurulub. Bu da əlbəttə, burada yaşayan insanlar üçün böyük rahatlıqdır.

Şirinxanım Abbasova: Hörmətli Mehriban xanım, məktəbimizin kollektivi adından Sizi salamlayırıq, Sizə minnətdarlığımızı bildiririk. Həm sakinlər adından, həm məktəbin pedaqoji kollektivi adından Sizə "Çox sağ olun!" deyirik. Sizin bu böyük işinizi yüksək qiymətləndiririk. Çox sağ olun.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun, mənim borcumdur. Bilirsiniz, mən hər zaman insanlarla ünsiyyətdə olmağa və onların problemlərini eşitməyə çalışıram. Bilirsiniz, mən də, cənab Prezident də hər zaman sizin yanınızdayıq. Siz bizim güc mənbəyimizsiniz.

Şirinxanım Abbasova: Məktəbin kollektivi adından Sizi əmin edirik ki, Sizin, bax, bu qədər gördüyünüz işlər qarşısında biz də daha böyük səylə çalışacağıq, bütün qüvvə və bacarığımızı gənc nəslin təlim-tərbiyəsinə həsr edəcəyik. Bir daha qəsəbə sakinləri, məktəbin pedaqoji kollektivi adından Sizə öz minnətdarlığımızı bildiririk. Sağ olun, var olun.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# SOCAR prezidenti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri ilə görüşüb









**SOCAR-ın prezidenti Rövnəq Abdullayev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Ceyms Layl Şarp ilə görüş keçirmişdir.**

Görüşdə SOCAR və Böyük Britaniya şirkətləri arasında uzunmüddətli əməkdaşlıq ənənələrinin yarandığı qeyd olunmuş, bu ənənələrin inkişaf etdirilərək genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Neft və qaz müqavilələrinin icra edilməsində Azərbaycanın etibarlı və stabil tərəfdaş olmasını yüksək qiymətləndirən Böyük Britaniya səfiri SOCAR ilə əməkdaşlığın xüsusi önəm kəsb etdiyini bildirmiş, bu əməkdaşlığın iki ölkə arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyini vurğulamışdır.

SOCAR-ın prezidenti BP şirkətinin timsalında Böyük Britaniya şirkətləri ilə reallaşdırılan birgə layihələrdən söz açmış, bu layihələrin həyata keçirilməsi prosesində hər iki şirkətin ortaq əməkdaşlıq dəyərlərinə və strateji baxışa sadiq olduğunu qeyd etmişdir. Rövnəq Abdullayev SOCAR-ın beynəlxalq əməkdaşlıqda əsas hədəf olaraq məhz Azərbaycan vətəndaşlarının peşəkar mütəxəssis kimi inkişafının stimullaşdırılmasına önəm verdiyini söyləmiş, başlıca prioritetin xarici şirkətlər tərəfindən yerli mütəxəssislər üçün beynəlxalq təlim və treninqlər keçirilməsi, iş imkanları yaradılması kimi məsələlərin olduğunu vurğulamışdır.

Görüşdən sonra qonaqlar SOCAR TOWER-dəki interaktiv neft muzeyi ilə tanış olmuşlar.

# Azərbaycan XİN: Ermənistan rəhbərliyinin destruktiv mövqeyi danışıqlar prosesinin məhv edilməsi cəhdi deməkdir



Ermənistanın təcavüzkar siyasətinin davam etməsi və hərbi işğala əsaslanan mövcud status-kvo vəziyyətinin möhkəmlənməsinə yönəlik addımları, o cümlədən bu ölkə rəhbərliyinin son dövrdə səsləndirdiyi anneksionist bəyanatlar əsasən daxili auditoriyaya yönəlmiş olsa belə, bölgədə vəziyyətin kəskinləşməsinə xidmət etdi. Onlar beynəlxalq hüququn açıq şəkildə tapdalanması ilə yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin uzun illər apardığı səylərini demək olar ki, şübhə altına alan çox təhlükəli bir gərginlik yaratdı.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuata açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Azərbaycan Hökuməti Ermənistan rəhbərliyinin məsuliyyətsiz ritorikasını münaqişənin həlli üzrə danışıqlar prosesini pozmaq cəhdi kimi dəyərləndirərək, bununla bağlı vaxtında qəti etirazını bildirdi və məsələ beynəlxalq təsisatların diqqətinə çatdırıldı. Azərbaycanın Xarici İşlər naziri tərəfindən BMT və ATƏT-in Baş katiblərinə, ATƏT-in Minsk qrupunun həmsədrlərinə, eləcə də Minsk qrupuna üzv ölkələrin Xarici İşlər nazirlərinə ünvanlanmış məktublarda Azərbaycan ərazilərinin işğalı və bu ərazilərdə tarixən yaşayan azərbaycanlıların qanlı etnik təmizlənməsi ilə nəticələnən Ermənistanın dövlət səviyyəsində işğalçılıq siyasətinin bu ölkə rəhbərliyinin son bəyanatlarında açıq şəkildə etiraf edildiyi vurğulandı və hərbi işğalın doğurduğu beynəlxalq hüquqi məsuliyyət məsələlərinə diqqət yönəldilərək, beynəlxalq ictimaiyyətin qəti mövqeyinin işğalçı Ermənistanın özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli olduğu qeyd edildi. Xarici İşlər Nazirliyi tərəfindən, həmçinin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının bütün üzv dövlətlərinə bu xüsusda eyni məzmunlu notalar ünvanlandı.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü öz şərhlərində mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edərək, verilən bəyanatların münaqişənin dinc yolla nizamlanmasına yönəldilmiş ümumi səylərin kontekstinə uyğun gəlməli və həssas danışıqlar prosesində tarazlığın pozulmasına gətirməməli olduğunu bəyan etdi. ABŞ-ın Azərbaycandakı səfiri Ermənistan baş nazirinin bəyanatına münasibət bildirərək, şiddəti təbliğ edən və gərginliyi artıran ritorikadan uzaq olmağa və tərəfləri dialoq prosesinə diqqət yetirməyə çağırdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Minsk qrupunun həmsədr ölkələrinin vasitəçiliyi ilə uzun illərdir ki, aparılan danışıqların mahiyyətini münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq təşkilatların qərar və qətnamələri, ilk növbədə isə BMT TŞ-nin məlum qətnamələri əsasında həllinin təmin edilməsi təşkil edir. Bu isə həmsədr ölkələrin bəyanatlarında, - o cümlədən 9 mart 2019-cu il tarixli bəyanatda, - dəfələrlə qeyd edildiyi kimi, Azərbaycanın işğal edilmiş ərazilərinin boşaldılması və bu torpaqlardan didərgin salınmış insanların öz evlərinə təhlükəsiz və ləyaqətlə geri dönüşünün təmin edilməsini nəzərdə tutur.

Azərbaycanın ərazilərini işğal edərək bu ərazilərdəki yerli azərbaycanlıları qanlı etnik təmizləməyə məruz qoyan Ermənistanın beynəlxalq hüququn öz müqəddəratını təyinetmə prinsipinin xeyirxah məqsədlərindən öz işğalçı siyasətini gizlətmək üçün sui-istifadə etməsi yolverilməzdir. Azərbaycan tərəfi hər zaman israrla bəyan edir ki, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin statusu məsələsinə yalnız bu ərazilərdən didərgin salınmış azərbaycanlı icmanın Dağlıq Qarabağdakı doğma evlərinə təhlükəsiz və ləyaqətli geri dönüşü təmin olunduqdan sonra hər iki icmanın iştirakı ilə birgə baxıla bilər.

Məlumdur ki, Ermənistan tərəfi münaqişənin tənzimlənməsi ilə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələr, eləcə də ATƏT-in Minsk qrupu həmsədrlərinin mandatı ilə yaxından tanışdır. Həmsədrlərin bəyanatlarında qeyd olunduğu kimi, münaqişənin sülh yolu ilə həlli BMT Nizamnaməsi, Helsinki Yekun Aktının müddəaları, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarları üzərində qurulmalıdır.

Ermənistan rəhbərliyinin məsuliyyətsiz və destruktiv mövqeyi, sözdə hər zaman səsləndirdikləri münaqişənin sülh yolu ilə həllinə nəinki xidmət etmir, əksinə, münaqişənin həlli istiqamətində aparılan sonuncu müzakirələrin mahiyyəti ilə ziddiyyət təşkil edir və danışıqlar prosesinin məhv edilməsi cəhdi deməkdir.

N.Paşinyan onu da birmənalı şəkildə dərk etməlidir ki, millətçi-təxribatçı dairələrin təzyiqi altında danışıqlar prosesini tərk edən tərəf mütləq uduzacaq. Buna görə də onun ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Azərbaycanla razılaşmaqdan başqa çarəsi yoxdur. Ermənistan rəhbərliyi bu istiqamətdə ardıcıl və dönməz şəkildə nə qədər sürətlə irəliləməyə başlasa, o qədər də tez erməni xalqı qonşuları ilə sülh şəraitində davamlı inkişaf yoluna qədəm qoya biləcək.

Bununla belə, növbəti dəfə Ermənistan tərəfinə xatırladırıq ki, BMT Nizamnaməsinin 25-ci maddəsinə uyğun olaraq, bütün üzv ölkələr Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməlidirlər. Bu müddəaya Ermənistan tərəfindən əməl edilməyəcəyi təqdirdə, BMT Nizamnaməsinin 51-ci maddəsinə istinadən Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyini bərpa edəcəyindən Ermənistan rəhbərliyi heç bir şübhə etməsin".

# *Əli Əhmədov:* Ölkəmizin inkişafı fonunda Azərbaycana qarşı bir sıra dairələr kampaniyalar aparır



Bizi narahat edən odur ki, Azərbaycanda bəzi qüvvələr tərəfindən siyasi proseslərdə normal seçki texnologiyalarından tamamilə fərqli formada istifadə etmək təcrübəsi yayılmağa başlayıb.

Trend-in məlumatına görə, bunu Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Yeni Azərbaycan Partiyası Qaradağ rayon ərazi ilk təşkilat sədrlərinin müşavirəsində deyib.

Əli Əhmədov bildirib ki, dekabrda növbəti bələdiyyə seçkisi keçiriləcək.

O qeyd edib ki, bugünkü müşavirədə bələdiyyə seçkiləri ilə bağlı hazırlıq müzakirə olunacaq: "YAP hər zaman seçkilərə yüksək səviyyədə hazırlaşır. İndiyə qədər qazandığımız qələbələr də bunun bariz nümunəsidir. Eyni zamanda, YAP qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi şəkildə hazırlaşır. İnanırıq ki, seçki də YAP namizədlərinin qalib gəlməsi ilə başa çatacaq".

YAP icra katibi qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar siyasi həyatda bir canlanma müşahidə olunduğunu qeyd edib: "Azərbaycan son illər böyük inkişaf yolu keçib. Həyatımızda böyük irəliləyişlər baş verib. Bu inkişaf prosesləri hər birimizin gözü önündə baş verib. Azərbaycanın inkişafını digər ölkələrin inkişaf templəri ilə müqayisə etsək, Azərbaycan ən sürətli inkişaf edən ölkələrdən biridir. Azərbaycan ən uğurlu gənc dövlətlərdən biri hesab olunur. Ölkəmizin inkişafı, insanların rifahının yaxşılaşması fonunda Azərbaycana qarşı bir sıra dairələr kampaniyalar aparır. Xüsusən ayrı-ayrı ölkələrdə sığınacaq alanların fəaliyyəti narahatlıq doğurur".

# YAP Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrləri ilə müşavirə keçirildi

**Sentyabrın 13-də Qaradağ rayonu Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrləri ilə müşavirə keçirildi.**











Müşavirə iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər çiçək dəstələri düzdülər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söylədi.

Əli Əhmədov bildirdi ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini qeyd etdi ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov vurğuladı ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini bildirdi.

Əli Əhmədov, həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini və Yeni Azərbaycan Partiyasının bu seçkilərə hazırlığı məsələləri haqqında fikirlərini də diqqətə çatdırdı. Qeyd etdi ki, bələdiyyə seçkiləri ilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur: "YAP hər zaman seçkilərə yüksək səviyyədə hazırlaşır. İndiyə qədər qazandığımız qələbələr də bunun bariz nümunəsidir. YAP qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi hazırlaşır. İnanırıq ki, bu seçki də YAP namizədlərinin qalib gəlməsi ilə başa çatacaq."

YAP Sədrinin müavini-İcra katibi Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanacağına əminliyini ifadə etdi. Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını diqqətə çatdırdı. Bildirdi ki, bu vasitələrin biri də sosial şəbəkələrdir. Onun sözlərinə görə, xaricdə özünü mühacir adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar.

YAP Sədrinin müavini vurğuladı ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Müşavirədə YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov qarşıda duran vəzifələrlə əlaqədar ərazi ilk partiya təşkilatı sədrlərinə müvafiq tövsiyə və tapşırıqlar verdi.

Qeyd edək ki, müşavirədə Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini icmalar komitəsinin sədri Siyavuş Novruzov da iştirak edirdi.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# *Hikmət Babaoğlu:* Rəşid Hacılı azərbaycanlıya yaraşmayan bir hərəkət edib



"Hər şeydən öncə deməliyəm ki, Rəşid Hacılı azərbaycanlıya yaraşmayan bir hərəkət edibdir. İkincisi, Rəşid Hacılı əgər doğrudan da hüquqşünasdırsa, o, ilk növbədə, bu cür addımların hüquqi məsuliyyət yaratmasından da xəbərsiz deyil".

**Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.**

Deputatın sözlərinə görə, Azərbaycan xalqının mənəvi, əxlaqi dəyərləri var və Azərbaycan ziyalıları, Azərbaycanın ictimai fəal fərdləri, hər bir Azərbaycan vətəndaşı bu dəyərlərə hörmət etməyə borcludur.

H.Babaoğlu qeyd edib ki, heç kəs virtual məkanda fəaliyyətin hüquqla tənzimlənməsi sahəsində boşluq olduğundan sui-istifadə edərək özünü vətəndaşlıq məsuliyyətindən və vicdani məsuliyyətindən kənarda tutmamalıdır. Xüsusən az-çox Azərbaycan cəmiyyətində tanınan, şəxsiyyəti ictimailəşmiş insanlar özlərinin vətəndaşlıq məsuliyyəti ilə bərabər, mütləq ictimai məsuliyyəti də hiss etməlidirlər.

Baş redaktor vurğulayıb ki, Azərbaycanın media institutu Azərbaycan xalqının informasiya sahəsində maraqlarını müdafiə edən ön cəbhə əsgəri kimi çıxış edir və onların hamısını ümumiləşdirərək məqbul hesab edilməyən, qeyri-etik tərzdə təhqir etmək üçün özündə cəsarət tapan insan, məsuliyyətli insan deyil: "Hələ əgər bu, hüquqşünasdırsa, demək, o, əslində heç hüquqi normaları və prinsipləri də bilmir və yaxud bilərəkdən onları heçə sayır. Ona görə də mən Rəşid Hacılının bu addımını qınayıram və əlbəttə ki, ən böyük qınağı da Rəşid Hacılı Azərbaycan media mənsublarından, Azərbaycan ictimaiyyətinin nümayəndələrindən, Azərbaycan cəmiyyətindən alacaqdır".

Hikmət Babaoğlunun sözlərinə görə, biz bu gün dəyərlərimizi gözardı etməli deyilik, etik dəyərlərimizi, mənəvi dəyərlərimizi qorumalıyıq: "Çünki tarixin heç bir mərhələsində heç bir xalqın dəyərlərə indiki qədər ehtiyacı olmayıb. Onsuz da Rəşid Hacılının da vasitə kimi istifadə etdiyi sosial şəbəkələr məhz bu dəyərləri hədəfə götürüb, məhz bu dəyərləri sıradan çıxarır. Gərək Rəşid Hacılı qlobal imperializmin bu yumşaq güc silahına özünü belə asanlıqla təslim etməyəydi. Bu, çox təəssüf doğurur".

## MUXTAR BABAYEV VƏ MÜAVİNLƏRİ VƏTƏNDAŞLARLA GÖRÜŞƏCƏKLƏR



Prezident İlham Əliyevin vətəndaşların təklif, irad və şikayətləri ilə yerində tanış olmaq üçün mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev sentyabrın 27-də Qax rayonunun sakinlərini qəbul edəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüş saat 10:00-da rayondakı Heydər Əliyev Mərkəzində (ünvan: Qax şəhəri, N.Nərimanov küçəsi, 4) keçiriləcək.

Elə həmin gün nazir müavinləri Firdovsi Əliyev Balakən, Rauf Hacıyev isə Zaqatala rayonlarında vətəndaşlarla görüşəcəklər.

Vətəndaşların qəbulu saat 10:00-da Balakən rayonunda Balakən meşəbəyliyinin inzibati binasında (ünvan: Balakən şəhəri, Heydər Əliyev prospekti, 75), Zaqatala rayonunda isə Zaqatala Regional Meşə Təsərrüfatı Mərkəzinin inzibati binasında (ünvan: Zaqatala şəhəri, Nizami küçəsi, 40) keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan qeydiyyatdan keçmək üçün info@eco.gov.az və ecologiya.nazirliyi@eco.gov.az elektron poçt ünvanları, nazirliyin 168 saylı "Qaynar xətt"i, həmçinin 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi (ünvan: Şəki şəhəri, Sabit Rəhman küçəsi, 271) ilə əlaqə saxlamaları (əlaqə telefonları: 024-4-43-06, 050-704-00-14, 055-474-77-97) xahiş olunur.

# Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının toplantısı başa çatdı

**Bakıda keçirilən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı "Müharibə və ya münaqişə ilə bağlı yaranmış ekstremal vəziyyətlərdə jurnalist fəaliyyətinin xarakteri" mövzusunda plenar iclasla davam etdi.**

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov mövzu ətrafında fikirlərini bölüşərək, bildirdi ki, müzakirə edilən mövzular medianın və jurnalistikanın ən aktual məsələlərini əhatə edir. Jurnalistikanın çox məsuliyyətli peşə olması ilə yanaşı, eyni zamanda, ən təhlükəli fəaliyyət sahələrindən biri olduğunu deyən Ə.Amaşov qeyd etdi ki, münaqişə zonalarında jurnalistlərin fəaliyyəti olduqca yüksək qiymətləndirilməlidir: "Həmin jurnalistlər müntəzəm olaraq peşəkar təlimlərə cəlb olunmalı, münaqişə zonasında qarşılaşa biləcəkləri vəziyyətlərə əvvəlcədən hazırlıqlı olmalıdırlar. Eyni zamanda, bu çətin şəraitə baxmayaraq dəqiq və obyektiv informasiyaların ötürülməsinin təmin edilməsi əsas şərtlərdən biri kimi qiymətləndirilir."













Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri Umud Rəhimoğlu mövzu ətrafında danışaraq bildirdi ki, hər gün yüzlərlə jurnalist öz həyatlarını təhlükə altına qoyaraq hücumlara və təqiblərə məruz qalır, qaynar nöqtələrdən reportaj hazırlayır: "Kimisi atəşə tutulur, kimisi əsir götürülərək girov saxlanır, kimisi isə zorakılıq və işgəncələrə məruz qalır və yaxud öldürülür. Qarabağ müharibəsinin gedişində peşə fəaliyyətini yerinə yetirərkən öldürülən ilk qadın jurnalist Salatın Əsgərova, jurnalistlər Leonid Lazareviç, Valeri Dementyev, Alı Mustafayev, Fəxrəddin Şahbazov, Çingiz Mustafayev və öz yazılarında həqiqəti əks etdirmək, münaqişənin əsl simasını açmaq istəyən bir çox insanlar həlak oldu."

U.Rəhimoğlu məlumat verdi ki, UNESKO-nun məlumatına görə, 1993-cü ildən indiyədək 1354 jurnalist qətlə yetirilib: "Təkcə 2018-ci ildə dünyada 80 jurnalist peşə fəaliyyəti zamanı öldürülüb. 2018-ci ildə jurnalistlər üçün ən təhlükəli ölkələr kimi qeydə alınan Əfqanıstan, Suriya, Hindistan, Meksika və Yəmən oldu. Bu gün vəziyyətin heç də yaxşılaşmadığını deyə bilərik. 2019-cu ildə təxminən 35 jurnalist həlak olub. Bu gün mülki əhaliyə qarşı tətbiq olunan beynəlxalq hüquq və normalar Cenevrə Konvensiyasının 49-cu maddəsinə uyğun olaraq jurnalistlərə də şamil olunur. BMT-nin Baş Assambleyasının 2 noyabr 2013-cü il tarixli "Jurnalistlərin təhlükəsizliyi və cəzasızlıq problemləri" adlı qətnaməsi isə jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün çox vacib sənəd oldu. Jurnalistlərin təhlükəsizliyinin təmin edilməsinin təşviqi və onlara hücum edənlərin cəzasız qalmasına qarşı mübarizə UNESKO-nun bütün media platformalarında mətbuat azadlığını dəstəkləyən əsas elementlərdir. Orta hesabla hər beş gündə cəmiyyəti məlumatlandırdığı üçün bir jurnalist öldürülür. Media işçilərinə qarşı hücumlar tez-tez münaqişə olmayan vəziyyətlərdə mütəşəkkil cinayətkar dəstələr, təhlükəsizlik işçiləri və hətta yerli polis tərəfindən həyata keçirilir ki, bu da jurnalistləri daha çox müdafiəsiz edir. Münaqişələrin gedişində jurnalistlərin beynəlxalq standartlara uyğun qorunması və münaqişə zonalarından obyektiv məlumatların yayılması münaqişələrin həllində zəruri olan beynəlxalq birliyin vahid mövqeyinin olması çox vacibdir."

"Azəri Defence" jurnalının baş redaktoru Rəşad Süleymanov qeyd etdi ki, regionda dəyişən mürəkkəb hərbi-təhlükəsizlik mühiti medianın qarşısında da yeni tələblər qoyur: "Bu tələblərin də ən başlıcası konflikt zonasında çalışan jurnalistlərin peşəkarlığının yüksəldilməsidir. 2005-ci ildən bu yana Cənubi Qafqazda və eləcə də Ukrayna və Türkiyədə münaqişə bölgələrindəki vəziyyəti təhlil etsək, bu bölgələrdə çalışan jurnalistlərin timsalında problemin səviyyəsini asanlıqla təsəvvür edə bilərik. Son on ildə postsovet məkanında baş verən silahlı münaqişələri işıqlandıran çox sayda jurnalist və operator yaralanıb və ya öldürülüb. Regionda baş verən silahlı münaqişələr və bu münaqişələrin işıqlandırılmasında jurnalistlərin qarşılaşdıqları çətinliklərdən biri redaksiyaların çox azında münaqişə zonalarında çalışa bilən, ixtisaslaşmış jurnalistlərin, operator və fotoqrafın olması, konflikt bölgəsinə ezam olunan yerli KİV jurnalistlərinin əksəriyyətinin sığortasız olması, digəri isə redaksiyaların konflikt zonasına ezam edilən heyətinin dəbilqə, zirehli gödəkcə, hətta minimum səviyyədə ilkin tibbi yardım paketi ilə təchiz edilməməsidir."

R.Süleymanov məlumat verdi ki, münaqişə zonalarına ezam olunan jurnalistlər daha çox ordunun inventarındakı, müvəqqəti dəbilqə və zirehli gödəkcələrdən istifadə edirlər: "Bu dəbilqə və gödəkcələr kamuflyaj edildiyindən jurnalistlərin həyatı üçün bilavasitə təhlükədir. Çünki düşmən snayperi kamuflyajdakının əsgər və ya jurnalist olduğunun fərqində olmur. Döyüş zonasında bu cür hərbiləşmiş KİV əməkdaşlarının snayperlərin, yaxud minaatanların qurbanına çevrilməsi labüddür. Bir faktı da qeyd edim ki, son Aprel müharibəsində Azərbaycan mediası döyüş zonasından informasiyaların çatdırılmasında maksimum şəkildə beynəlxalq jurnalistikanın tələblərinə, etik normalarına uymağa çalışdı və buna nail oldu."

Hindistan Mətbuat Şurasının üzvü Çhakanda Nayak, "Sərhədsiz sərhədlər" təşkilatının prezidenti Kais Cumaa Abdul Rahem çıxışlarında bildirdilər ki, jurnalistlərin peşə vəzifələri üçün yaranmış təhlükə, onların həbsi və öldürülməsi dünya mediasının ən ağrılı tərəfidir. Digər tərəfdən, müasir qloballaşan dünyada sosial media və rəqəmsal jurnalistika öz müsbət xüsusiyyətləri ilə yanaşı, yeni təhlükəli təmayüllərin, qarşıdurmaların vüsət almasına şərait yaradıb. Bu, jurnalistlərə qarşı yeni təhlükə mənbələrinin yaranması, təhdid və qətllərin motivinin dəyişməsi ilə müşayiət olunur.

Qeyd edildi ki, münaqişələr haqqında obyektiv məlumatların yayılması prosesini dəstəkləmək üçün vahid platforma yaratmağın böyük əhəmiyyəti var. Obyektiv və qərəzsiz informasiyanın birgə dəstəklənməsi münaqişələrin həlli, təhlükəli tendensiyaların qarşısının alınması, insan hüquq və azadlıqlarının qorunması baxımından unikal bir imkandır.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı müzakirələrlə davam etdi, qərarlar qəbul olundu.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

## NİZAMİ KƏRİMOV - 60

## Geoloji-kəşfiyyat işlərinə həsr olunmuş ömür



Nizami Sayad oğlu Kərimov 1959-cu il sentyabr ayının 15-də Tərtər rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1976-cı ildə orta məktəbi bitirmiş, 1978-1980-ci illərdə hərbi xidmətdə olmuşdur.

1987-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsində təhsilini başa vuraraq, dağ mühəndisi-geoloq ixtisasına yiyələnmiş və həmin ilin sentyabr ayında "Neft Daşları" NQÇİ-də əmək fəaliyyətinə başlamışdır.

1988-1990-cı illərdə "Neft Daşları" NQÇİ-nin Geoloji şöbəsində geoloq, 1990-1995-ci illərdə Elmi-tədqiqat işləri sexində aparıcı mühəndis, 1995-1996-cı illərdə ETİİS-də rəis müavini, 1996-2000-ci illərdə LTS və Tİ-də mühəndis vəzifələrində çalışmışdır.

2000-2001-ci illərdə Kompleks Dəniz Kəşfiyyat İdarəsində texnoloq, 2001-ci il "Çilov" adası, "28 May" NQÇİ-nin ETİİS-də texnoloq, 2001-2006-cı illərdə "Çilov" adası idarə aparatında Neft və qaz yataqlarının işlənməsi və tədqiqata nəzarət şöbəsində geoloq, 2006-2008-ci illərdə ETİİS-də qrup rəhbəri vəzifələrində çalışmışdır.

N.Kərimov 2008-ci ildə "Dənizneftqazlayihə" (DETLİ) İnstitutunda (indiki "Neftqazelmitədqiqatlayihə" İnstitutu) Neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi və təhlili laboratoriyasına müdir vəzifəsinə təyin olunmuşdur. İşlədiyi müddətdə laboratoriyada onun rəhbərliyi ilə 50 elmi-tədqiqat işi yerinə yetirilmiş, 20-dən artıq elmi məqaləsi yerli və xarici jurnallarda dərc olunmuşdur.

Nizami müəllim 2013-cü ildə respublikanın Neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə SOCAR-ın Fəxri Fərmanı ilə təltif olunmuşdur. N.Kərimov yüksək peşəkarlıq səviyyəsi, səmərəli və məhsuldar fəaliyyəti, əldə etdiyi nailiyyətləri ilə SOCAR rəhbərliyinin və institut kollektivinin hörmət və rəğbətini qazanmışdır.

Hörmətli Nizami müəllim! Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə elmi fəaliyyətinizdə uğurlar diləyir, möhkəm cansağlığı, uzun ömür və şəxsi həyatınızda xoşbəxtlik arzulayırıq.

*"Neftqazelmitədqiqatlayihə" İnstitutunun kollektivi adından Geologiya və yataqların işlənməsi üzrə direktor müavini: g.-m.e.d. Ə.Salmanov*

Ön xətdən reportaj

# Bizə güvənənlərə arxalanırıq, Vətən!



Günəş qüruba meyillənib...

Səngərdən çox da uzaqlaşmamışam; ayağım gedir, ürəyim arxaya çəkir. Dönüb gözdolusu baxıram, anların o üzündə qalan, hər eşidəndə qürurumu kükrədən, inamımın inamına dönən, ahənruba ki, düşüncələrimi özünə çəkən kəlmələri anıb baxıram.

Ayaq saxlayıb səngərlərə baxıram. Bilirəm ki, döyüş növbətçiliyi aparanları görmək mümkün olmayacaq, digərləri hərə öz vəzifə borcunu yerinə yetirir. Baxıram və batmaqda olan Günəşin sozalan işığından keçib vəzifə borcumu yerinə yetirməyə tələsirəm...

Hansı duyğuların təsiriylə, ayaq saxlayıram. Ürəyim məni bayaqkı söhbətlərin davamını eçitməyə çəkir; düşüncələrimin nizamsız nizamı bayaq səngəri, səngərdəkiləri bir boy da dikəldən söhbətin mahiyyətinə söykənib. O mahiyyətin başlanğıcı dövlətdi, dövlət olaraq Vətəndi, Vətənin başlanğıcı olan torpaqdı. O mahiyyət torpaq, Vətən, dövlət ünvanlı əsgər düşüncəsinin işığıdı.

Hər kəlam öz yozumunda düşüncələrə daha yatımlı olur, düşüncələrə daha rəvan hopur, daha həssas, daha yaşarı ovqat yaradır, fərdin fəaliyyətini daha gərəkli məcraya yönəldir. Yaxşı söz, dürüst söz, fəzilətli söz yaşadılmalıdı. Bayaq səngərdə əsgərlərdən iki fikir eşitmişdim: "Xalq bizə güvənir" "Biz xalqa arxalanırıq". Bu iki fikri bitgin bir fikir kimi ifadə etmişdim: "Bizə güvənənlərə arxalanırıq". Onda əsgərlər bir anlığa səngərin o üzünə baxmışdı və dediklərimi Vətənə ünvanlamaqla təkrarlamışdı: "Bizə güvənənlərə arxalanırıq, Vətən!". Bu etiraf-müraciətdə hiss edilməsi çətin olmayan bir ehtiram, bir sevgi vardı. O ehtiram, o sevgi həm bu müraciətin ünvanınaydı -Vətənəydi, həm də bu müraciəti yaradanlara - xalqa...

Bu gözəl, yaşarı, bəşəri anlar hamımıza qürurlu bir tarixi xatırlatmışdı; 2016-cı ilin aprel döyüşləri Böyük Qələbənin başlanğıcı kimi heç zaman unudulmayacaq. Böyük Qələbədən sonra da unudulmayacaq. 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin irimiqyaslı təxribatlarının qarşısını alanlara güvənən xalqın unutmayacaq, xalqa arxalanan hərbçilər unutmayacaq. Bu döyüşlər Azərbaycan əsgərinin vətənsevərlik tarixi kimi unudulmayacaq - yaşayacaq, yaşadılacaq. Bu qələbənin tarixi əhəmiyyətini Lələtəpə, Bayraqtəpə kimi mühüm strateji əhəmiyyətli yüksəkliklərin erməniszləşdirilməsiylə alınmasıyla məhdudlaşdırmaq insafsızlıq olardı. Bu qələbə böyük qələbəydi. Bu qələbə ordu ilə xalqın birliyinin qələbəsiydi, bu qələbə xalqın orduya inamının güvəncinin qələbəsiydi. Bu qələbə xalqa arxalanan ordunun qələbəsiydi, bu qələbə yaxın vaxtlarda tarix yazacaq Böyük Qələbənin başlanğıcıydı...

O döyüşlər gedən vaxtlarda Qarabağ müharibəsinin iştirakçıları da, əlilləri də, tələbələr də, çağrış yaşlı yeniyetmələr də, qızlar da döyüşlərə getmək üçün müraciət etmişdilər. Bu müraciətlər qəbul edilmədi - kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu düşmənin irimiqyaslı təxribatlarının qarşısın almağa da, onun "pərənini pozmağa" da qadir idi. O döyüşlərdə xalq ordusunun yanındaydı. Xalqa arxalanan ordu uğurlu döyüş əməliyyatı apardı. Xalq bir daha əmin oldu ki, güvəndiyi ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdi...

Müdafiə nazirinin əmriylə hərbi hissələrdə "Açıq qapı" günü keçirilir. Belə gərəkli tədbirin mahiyyəti təkcə şəffaflığın təmin edilməsi ilə bağlı deyil, bu miqyaslı tədbir güvənc, arxalanma ifadələri arasında münasibətin, ordu - ictimaiyyət münasibətinin səviyyəsinin göstəricisidir. "Açıq qapı" günündə xalq güvəndiyi ordusuna bir qədər də yaxınlaşır, inamı, güvənci əyaniləşir, mətinləşir, dönməzləşir. Bu, etimaddır. Bu etimad ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında nəzərəçarpacaq dərəcədə əhəmiyyətli olur.

Xatırlayıram ki, bayaq səngərdə döyüş növbətçiliyinə hazırlaşan əsgər Ruslan Şərifov Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradları xatırlayaraq qürurla demişdi:

-Hər iki parad böyük coşqu ilə izlənildi. Bu coşqu xalqın orduya inamının, güvəncinin coşqusuydu. Onda bu gün hərbi xidmətdə olan əsgər yoldaşlarım kimi mən də orta məktəbdə oxuyurdum. Yəni o paradları ictimaiyyətin nümayəndəsi kimi izlədim. Canlı yayımla ordumuza böyük ehtiramı gördük, sevgini gördük. Xalqın orduya bu səviyyədə inamı, güvənci ürəyimizi dağa döndərdi. Bu, öz yerində. Paradlar bizim hərbi xidmətə münasibətimizdə də əhəmiyyətli rol oynadı. Sinif yoldaşlarımdan üç nəfəri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantıdır...

Əsgərin dedikləri mənə olduqca duyğusal, düşündürücü, zərif bir ovqat yaşatmışdı. Bu ovqat uzun müddət nə yaddaşımdan, nə də könlümdən üzülməyəcək; belə "əldüşməz" ovqat yaşamaq da, yaşatmağı bacarmaq da fəzilətdi.

Əsgər Ruslan Şərifovun dediklərini əsgər Valeh Bayramov dedikləri tamamlamışdı:

-Bu paradları mən də izlədim, mən də qürurlandım. Ali Baş Komandanın əmriylə döyüşəcəyik, qələbə qazanacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik. Ən möhtəşəm parad Böyük Qələbənin paradı olacaq. Xalq həmin paradın intizarındadı, yəni xalq inanır ki, müharibə yaxın vaxtlarda başa çatacaq, torpaqlarımız işğaldan azad ediləcək. Xalq orduya bütün varlığıyla güvənir.

Zabit Nəsimi Həsənli əsgərlərin fikirlərini ümumiləşdirərək demişdi ki, xalqın inamı, güvənci hərbi qulluqçuların hərbi xidmətə münasibətini daha da artırır. Azərbaycan əsgəri ona güvənənlərə daha dönməzliklə arxalanır. Bu amil ordunun qüdrətinin tərkib hissələrindəndir.

Səngərdən uzaqlaşmamış səngərin mahiyyəti, səngərdəkilərə ehtiram könlümü səngərlərə çəkir. Məni əsgərlərin döyüş əzmi, qələbə ruhu uğurlamışdı. Könlüm yenə Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun cazibəsinə uçunur. Düşüncələrimə səngərdə əsgərlərdən eşitdiklərim - "Xalq bizə inanır, güvənir", "Biz xalqa arxalanırıq", bu iki fikrin ifadə etdiyi məzmunları məntiqi baxımdan birləşdirən, mahiyyətini paralelləşdirən, düşüncələrə gərəklilik baxımından eyniləşdirən "Bizə güvənənlərə arxalanırıq, Vətən!" kəlamı hökm etməkdədi. Digər həmkarlarım kimi mən də həmişə əsgər düşüncələrini düşüncələrimin ağ yolu bilmişəm. Bəlkə də bu səbəbdən düşüncələrim belə hökmlərin cazibəsində daha çılğınlıqla durulaşır. Həm də ön xətdə, səngərdə, səngərlərin yan-yöresində.

Ötən ilin payızında ön xətdə, səngərdə əsgərlərlə söhbətləşirdik. Yenə Vətəndən, dövlətdən, dövlətçilikdən, qələbədən, şəhidlikdən danışmışıq. Onda sözarası, Azərbaycanda müharibənin yaratdığı ön xətt ifadəsinin də ömrünün çox olmayacağını demişdim. Araya qəribə, başaçılmaz bir səssizlik çökmüşdü. Əsgərlərdən biri - çox təəssüflər ki, ad-soyadını unutmuşam - qətiyyətlə demişdi:

-Komandirimiz bizə 2016-cı ilin aprel döyüşlərində qələbə qazananların davamçısı olmağı arzulamışdı. Siz də belə dediniz. Güman edirəm ki, ictimaiyyət də bu fikirdədi. Biz də ordu sıralarından qalib əsgər kimi tərxis olunmaq istəyirik.

Bir anlığa susub qarşı tərəfə baxmışdı, sonra fikrini belə tamamlamışdı:

- Müharibənin də, onun səbəbindən yaranan ön xətt, səngər, blindaj kimi ifadələrin də Azərbaycanda ömrünü sonlandıracağıq.

Aylardan sonra yenə həmin ön xətdəydim, həmin səngərdəydim. Mənə gözəl könül xoşluğu yaşatmış əsgər tərxis olunmuşdu.

Aylardan sonra əmin oldum ki, həmin qətiyyətli, inamlı kəlmələri ad-soyadını unutduğum əsgərə bu gün, bir az əvvəl məni səngərdən uğurlayan məfkurəvi fikirlərin mahiyyətinin bənzərsizliyi, oxşarlığı dedizdiribmiş. Ötən il payızında ön xətdə, səngərdə eşitdiyim və düşüncələrimə hopdurduğum bu fəziləti fikirləri də, bir az əvvəl səngərdə səslənişi könül mülkümü gözəlləşdirən fikirləri də eyni əqidənin, eyni məfkurənin, eyni amalın işığı bildim. Bu işığın milli-xəlqi ruhdan düşən işığı yaşatma qüdrətində olduğuna bir daha əmin oldum.

Bir az əvvəl səngərdə düşüncələrim iki kəlama sarılmışdı. Əsgərlərdən eşitdiyim iki kəlam ruhumda sözlə ifadə etməyə çətinlik çəkdiyim bir ovqat yaratmışdı, bu gözəl ovqat qələbə ovqatıydı. Əsgərlər demişdi ki, xalq, Azərbaycan əsgərinə güvənir, Azərbaycan əsgəri xalqa arxalanır...

Ayağım gedir, ürəyim məni geriyə-səngərlərə sarı çəkir...

Səngərlərə baxıram. Mənə elə gəlir ki, bayaq məni uğurlayanlar canı-dildən "Bizə güvənənlərə arxalanırıq, Vətən!" - deyir. Bu səslənişdə dönməz bir qələbə ovqatı var. Bu qələbə Böyük Qələbə olacaq. Həm də yaxın vaxtlarda...

Rəşid Faxralı

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ İCLASI



Ötən gün Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

Məzahir Pənahovun sədrliyi ilə keçirilən iclasda əvvəlcə Komissiyanın 29 may 2019-cu ildə keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 4 saylı Naxçıvan şəhər, 16 saylı Yasamal ikinci, 26 saylı Sabunçu birinci, 37 saylı Nizami birinci (Gəncə), 40 saylı Kəpəz ikinci (Gəncə), 71 saylı Masallı kənd, 80 saylı İmişli-Beyləqan, 83 saylı Ağcabədi-Füzuli, 93 saylı Bərdə şəhər və 108 saylı Ağstafa seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

İclasda cari məsələlərə də baxılıb.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

## PENSƏRÇAY MƏCRASINA QAYTARILIR



Astara rayonunun Pensər kəndində görülən abadlıq-quruculuq işləri bu diyarın daha işıqlı gələcəyindən xəbər verir. Kəndin hər qarışı insan əllərinin hərarəti ilə yenileşir. Həm də dövlətin xüsusi qayğısı hesabına sosial məsələlər vaxtında həllini tapır, əhalinin güzəranı durmadan yaxşılığa doğru dəyişir. Kənddə hər ötən günün öz zəhmət sevinci olur. Görülən işlərin biri haqqında məlumat vermək istəyirəm.

Pensərçay çayı kəndin mərkəzindən keçməklə onu iki yerə ayırır. Bu çayın kəndin iqtisadiyyatında rolu böyükdür. Qaldı ki, yağmurlu havalarda məcrasından çıxan vaxtları da olur. Belə hallarda kəndin yaşayış evlərinə, təsərrüfatlara çoxlu ziyan dəyir. Artıq bu problem dövlət başçısı İlham Əliyevin xüsusi tapşırığı ilə yoluna qoyulur. Pensərçay çayında sahilbərkitmə işləri ilə bağlı 1 milyon manat Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Acıq Səhmdar Cəmiyyətinə ayrılıb. Burada işlər bu ilin iyul ayından başlanıb. Tikinti işlərini podratçı təşkilat - "Uğur-İnşaat" MMC aparır.

Çay boyu 600 metrlik ərazidə sahilbərkitmə işlərinə ehtiyac var idi. İndiyə kimi onun 400 metri hazırlanıb. 220 metr ərazidə hündürlüyü 6 metr olan yeni bənd salınıb. Hazırda isə inşaatçılar çaya əvvəllər çəkilmiş bəndə, eləcə də köhnə dayaqlarda bərkitmə işləri aparırlar.

Tikinti meydançasında 20-yə yaxın inşaatçı və lazımi texnika işləyir. Keyfiyyət əsas olmaqla bütün işlər vaxtında görülür. İnşaatçıların qarşısında Pensərçayda sahilbərkitmə işlərini oktyabr ayında başa çatdırmaq durur.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

## "BAKCELL" VƏ ASAN KÖNÜLLÜLƏRİ NÖVBƏTİ DƏFƏ UŞAQLARI SEVİNDİRDİLƏR



"Bakcell" şirkəti növbəti dəfə "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" layihəsinin təşəbbüsündə iştirak edib.

Təşəbbüs çərçivəsində "ASAN Könüllüləri" Təşkilatı və "Bakcell" şirkətinin əməkdaşlığı, "Məktəblinin dostu" layihəsinin tərəfdaşlığı ilə xüsusi aksiya təşkil olunub. "Bilik Günü" münasibətilə keçirilmiş bu aksiyanın əsas məqsədi yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq həssas qruplara aid uşaqları sevindirmək, onların arzu və istəklərini reallaşdırmaqdır.

"Bakcell" nümayəndələri və "ASAN Könüllüləri"nin iştirakı ilə keçirilmiş xüsusi tədbirdə 284 nömrəli məktəbdə təhsil alan 25 şagirdə "Bakcell"dən məktəbli çantaları və digər məktəb ləvazimatları hədiyyə edilib.

"ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Uşaqların saf arzularını reallığa çevirən "ASAN Məktub" layihəsi 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların məktubları www.asanmektub.az saytına yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. "Bakcell" şirkəti layihəyə, həmçinin mobil rabitə dəstəyi göstərir.

"Bakcell" şirkəti xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərir. "ASAN Məktub" layihəsi ilə tərəfdaşlıq "Bakcell" şirkətinə uşaqları sevindirmək və onların saf arzularını həyata keçirmək üçün daha böyük imkan yaradıb.

# 15 sentyabr: İstiqlalımızın real təməl üzərində qurulduğu gün

## BAKININ ERMƏNİ-BOLŞEVİK QÜVVƏLƏRİNDƏN AZAD EDİLMƏSİNDƏN 101 İL ÖTÜR



101 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu erməni-bolşevik işğalı altında olan Bakıya daxil olaraq şəhəri düşmənlərdən azad etdilər. Bununla da 1918-ci ilin mayında müstəqilliyini elan etmiş ölkəmizin tarixi salnaməsinə yeni bir səhifə yazıldı. Ertəsi gün isə bu parlaq qələbə münasibətilə parad keçirildi. Bu tədbir həm də bir birlik bayramı kimi qeyd olundu. Paradda Nuru paşa, Xəlil paşa, general Əliağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin, hökumətinin üzvləri, Bakı və ətraf kəndlərin sakinləri iştirak edirdilər.

Məhz Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan bu tarixi hadisədən iki gün sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü. Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Bununla da 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu.

Bu kimi səbəblərdən də siyasətçilər Bakının xilasını Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış bir tarixi zəfər kimi dəyərləndirirlər. Məhəmmədəmin Rəsulzadə bununla bağlı belə demişdir: "Əgər 28 mayda Cümhuriyyətin istiqlalı bütün dünyaya elan edilmişdisə, 15 sentyabrda bu istiqlal real bir təməl üzərində qurulmuş oldu".

Ötən il paytaxtımızın Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Prezident İlham Əliyev bu zəfərdən danışarkən bildirmişdir: "Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır". Həmin tədbirdə iştirak edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Nuru paşanın Bakıya gəlişinin "bir millət, iki dövlət" olduğumuzun əyani təzahürü kimi dəyərləndirməklə yanaşı, bu sözləri də söyləmişdir: "Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır... Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyinin təməlini qoyub".

Yeri gəlmişkən qeyd edək ki, həmin döyüşlərdə 1130 nəfər türk əsgəri və zabiti həlak oldu. Türk ordusunun Azərbaycanda hərbi əməliyyatlar keçirdiyi bölgələrdə onlarla şəhidlik də mövcuddur. Bəzi mənbələrə görə, yerli əhalidən isə şəhidlərin sayı 5 mindən artıq idi. Bu isə o deməkdir ki, Bakının daşnaklardan azad olunması Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun misilsiz fəaliyyəti olmaqla yanaşı, həm də Azərbaycan xalqının özünün böyük qəhrəmanlıq nümunəsi idi.

Bir sözlə, 15 sentyabrda həm Azərbaycanın istiqlaliyyəti təmin olundu, həm də ermənilərin, bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına, törətdikləri qırğınlara son qoyuldu... Əgər bu gün Bakının azad olunmasından fəxarətlə danışırıqsa, buna görə o zamankı türk və Azərbaycan əsgərlərinə borcluyuq. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri gündən-günə möhkəmlənir. Prezident İlham Əliyevin bildirdiyi kimi, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik: "Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun". Şübhəsiz, bu da Azərbaycan-Türkiyə birliyinin sarsılmaz, həm də əbədi olduğunun əsas göstəricisidir.

Şübhəsiz, gün gələcək hələ də erməni daşnaklarının işğalı altında olan bütün torpaqlarımız azad olunacaq və həmin ərazilərdə də Azərbaycanın dövlət bayrağı dalğalanacaq.

Qeyd edək ki, ölkəmiz müstəqilliyini yeni bərpa etdikdən sonra hər il sentyabrın 15-də bu əlamətdar gün qeyd edilir, şəhid əsgərlərin xatirəsi anılır. Qafqaz İslam Ordusunun tarixi xidmətləri nəzərə alınaraq 1999-cu ildə onun şərəfinə Şəhidlər xiyabanında möhtəşəm abidə də ucaldılıb.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## BP neft sızmasına görə cərimələndi




BP şirkəti yeddi il bundan əvvəl Şetlandda baş verən sızmaya görə cərimələnib. Böyük Britaniya hökumətinin sağlamlıq, təhlükəsizlik və ətraf mühit departamenti şirkətin 400 min avro cərimə ödəməli olduğunu açıqlayıb.

Bildirilib ki, sızma zamanı torpağa 3,8 ton xam neft axıb.

2012-ci ilin 12-13 noyabr tarixlərində departament tərəfindən aparılan tədqiqatlar zamanı məlum olub ki, BP kəşfiyyat və istismar zamanı qəzaların qarşısını almaq və onların insanlara və ətraf mühitə təsirini məhdudlaşdırmaq üçün lazımi tədbirləri yerinə yetirməyib.

## Norveçin "Equinor" şirkətinə ziyan dəyib




Norveçin "Equinor" dövlət enerji şirkəti Bahama adalarında yerləşən saxlama terminalında "Dorian" qasırğasının ardından neft sızması baş verdiyini açıqlayıb.

"Sahədə ilkin baxış zamanı məlum olub ki, terminala ziyan dəyib, sahildəki gəmilərdən başqa, torpağa da neft axıb. Hələ ki, axan neftin həcmini dəqiq deyə bilmirik. Lakin dənizə neft sızmadığı artıq dəqiqləşdirilib",-deyə şirkətdən bildirilib.

"Equinor"un adadakı bütün işçilərinin vəziyyəti yaxşıdır. Qasırğa barədə məlumatı alan kimi şirkət terminalda əməliyyatları dayandırıb, buna görə də işçi heyətinə heç bir zərər dəyməyib.

Hava şəraiti nisbətən düzəlsə də, yolların vəziyyəti və daşqın hələlik "Equinor" şirkətinə terminalda təmizlik və bərpa işləri aparmağa imkan vermir.

# *Rəşad Azadlı:* Hədəf qoymuşdum ki, Bakı Ali Neft Məktəbinin tələbəsi olum

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Sərəncama əsasən, 2019/2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında I ixtisas qrupu üzrə ən yüksək nəticələr göstərmiş və Bakı Ali Neft Məktəbinə (BANM) daxil olmuş 23 Prezident təqaüdçüsündən biri də Rəşad Azadlıdır. Rəşad 679,3 bal toplayaraq Bakı Ali Neft Məktəbinin "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub.**

O, 2002-ci ildə Kürdəmir rayonundan anadan olub. 2009-2017-ci illərdə Kürdəmir rayonundakı Siyavuş Paşayev adına 6 saylı orta məktəbdə təhsil alıb. Daha sonra 2017-2019-cu illərdə Bakı şəhəri, Xətai rayonunda yerləşən 147 saylı Texniki-Humanitar liseyi bitirib.

***- Qəbul imtahanını necə xatırlayırsız?***

-İlk qəbul imtahanında çox həyəcanlı idim, çünki təcrübəsiz idim, apreldə ilk dəfə kurrikulum üzrə imtahan verirdim. Yaxşı nəticə əldə etdiyim üçün ikinci imtahan həyəcansız və rahat keçdi.

***- Seçdiyiniz ixtisasa həvəs necə yaranıb?***

-Atam neft-qaz sahəsində çalışır, əsas həvəsim ondan qaynaqlanıb. Uşaq vaxtından atam kimi neft-qaz sahəsi üzrə mütəxəssis olmaq istəmişəm.



***- Bakı Ali Neft Məktəbi haqqında haradan məlumat əldə etmisiniz?***

-Ali Məktəb barədə atamdan eşitmişdim, oxuduğum orta məktəbdə də eşidirdim. Təhsilin keyfiyyəti və tələbkarlıq haqqında çox danışırdılar. Özüm Xətai rayonunda yaşayıram, demək olar Ali Məktəbin binasını tez-tez görürdüm, məktəbli vaxtından hədəf qoymuşdum ki, Bakı Ali Neft Məktəbinin tələbəsi olum.

***- Niyə məhz Bakı Ali Neft Məktəbini seçdiniz?***

- Seçdiyim ixtisas qrupu üzrə ölkənin ən prestijli ali məktəbi BANM olduğu, həm də tələbələrə ingilis dilində yaxşı təhsil və təcrübə imkanları təqdim etdiyi üçün sənədlərimi məhz Bakı Ali Neft Məktəbinə verdim.

***- BANM-də oxumaq hədəfinizə necə çatdınız?***

-Düşünürəm ki, məsuliyyətli olmaq, mütəmadi olaraq dərslərə diqqət ayırmaq və yaxşı oxumaq yetərli deyil, həm də abituriyent gərək lazımlı formada dincəlməyi də bacarsın. Beyin dincəlməlidir ki, insan güc toplasın. Məsələn, mən dərslərdən yorulanda şahmata vaxt ayırırdım, dostlarla şahmat oynayırdıq, sonra gəlib yenidən dərslərimə davam edirdim.

***- Ailənizin təhsilinizdə rolu haqqında nə demək istəyirsiz?***

-Ailədə dörd nəfərik, əkiz qardaşımla bərabər neft-qaz sahəsinə qəbul olmuşuq. Qardaşım Rəşid də mənimlə birgə Bakı Ali Neft Məktəbinə "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub. Atamdan ixtisasıma həvəs keçib. Anam rus dili müəlliməsidir, uşaqlıqdan təhsilə ciddi fikir verməyimdə anamın xüsusi rolu var.

***- Ən böyük arzunuz?***

-Hazırda ən böyük arzum yoxdur, sadəcə mərhələli arzu deyərdim buna. İndi istəyirəm BANM-də təhsili başa vurub öz sahəmdə iş tapım. Sonrakı mərhələdə dünya turuna çıxmaq, ən çox da ixtisasımla bağlı yenilikləri öyrənmək istəyirəm.

***- Hobbiləriniz nədir?***

-Basketbol oynamaq, kitab oxumaq, idmanla məşğul olmaq.

***- İxtisasınızdan savayı, başqa hansı sahələrə maraq göstərirsiz?***

- Kompüter sahəsinə çox marağım var, ixtisasımla paralel olaraq proqramlaşdırma biliklərinə yiyələnmək istəyirəm.

***- Hansı janrda kitablar oxuyursuz?***

-Fantastika və detektiv janrı mənə cəlbedici gəlir, əsasən Harri Potterin müəllifi Coan Ketlin Roulinq, Çingiz Abdullayev, Aqata Kristi sevimli yazıçılarımdır.

***- BANM-dəki təhsillə bağlı gələcək hədəfləriniz nədir?***

-Beş illik təhsil zamanı əsas hədəfim neft-qaz sahəsi üzrə peşəkar mütəxəssis olmaqdır. Eləcə də rus və ingilis dillini daha da təkmilləşdirmək və sosial bacarıqlarımı, ünsiyyət vərdişlərimi daha da inkişaf etdirməyi planlaşdırıram. Hesab edirəm ki, Bakı Ali Neft Məktəbi mənə bu istiqamətdə kömək olacaq.

# “Şahdəniz” qaz-kondensat yatağının kəşfindən 20 il ötür

## Yataq Azərbaycanın müstəqilliyi, “Əsrin müqaviləsi” və düzgün neft strategiyası nəticəsində 1999-cu ildə açılıb

**AZƏRTAC ölkəmizin təbii qaz sənayesinin inkişafında və Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasında mühüm rol oynayan “Şahdəniz” qaz-kondensat yatağının kəşf edilməsinin 20 illiyi ilə bağlı istehsalatçı alim, geologiya-mineralogiya elmləri doktoru, faydalı qazıntıların geofiziki axtarış üsulları ixtisası üzrə dosent-assistant professor Hümbət Vəliyevin məqaləsini təqdim edir.**





H.Vəliyev uzun müddət Dövlət Neft Şirkətinin Azərgeofizika Elmi-Tədqiqat İnstitutunda “Geodinamik gərginlik və kəsilişlərin neftlilik-qazlılığı” laboratoriyasında baş elmi işçi, sonra isə laboratoriya müdiri vəzifəsində çalışıb, 1990-cı ildən tədqiqinə başladığı “Şahdəniz”, “Bahar”, “Bulla-dəniz” sahələrinin geoloji tektonik quruluşunun öyrənilməsi və neftlilik-qazlılıq perspektivinin qiymətləndirilməsi tədqiqatlarında yaxından iştirak edib. 2007-2014-cü illərdə Geofizika və Geologiya İdarəsinin Kəşfiyyat Geofizika İdarəsində baş mühəndis, yeni yaradılan bölümün istehsalat üzrə rəis müavini və bölümün rəisi işləyib.

Azərbaycanın quru ərazilərində “Muradxanlı”, “Cəfərli”, “Naftalan”, “Qazanbulaq”, “Tərsdəllər”, “Qalmaz”, “Qaradağ”, “Quba-Xəzəryanı” sahələrində və Xəzər dənizinin “Şahdəniz”, “Ümid”, “Babək”, “Qoşadaş”, “Neft Daşları”, “Oğuz”, “Bulla-dəniz” və digər strukturlarının geoloji-tektonik quruluşunun öyrənilməsində seysmik kəşfiyyatın əks olunan dalğa üsulu ilə axtarılan (2D, 3D) tədqiqatlarda yaxından iştirak edib, dəniz və çöl işlərinin yerinə yetirilməsinə, dəyərli məlumatların alınmasına məsul icraçı kimi rəhbərlik edib, 2 monoqrafiyanın, 133 elmi məqalənin, 69 elmi-texniki hesabatın, 3 ixtiranın və bir səmərələşdirici təklifin müəllifidir. Onun “Respublika”, “Xalq”, “İki Sahil” qəzetlərində geofiziki və ekoloji problemlərə dair, Azərbaycanın neft strategiyası və neft yataqlarının proqnozu ilə bağlı elmi-kütləvi yazıları müntəzəm olaraq çap edilir.

H.Vəliyev Azərbaycan Milli Geofizika Komitəsinin, Neftçi Geoloqlar Cəmiyyətinin və Seysmoloqlar Assosiasiyasının üzvüdür. 2013-cü ildə “Neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə” Dövlət Neft Şirkətinin fəxri fərmanı ilə, 2017-ci ildə “Geofiziki və geoloji tədqiqatlar və təhsil sahəsində səmərəli fəaliyyətinə görə” Azərbaycan Milli Geofizika Komitəsi İctimai Birliyinin fəxri fərmanı ilə təltif olunub. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının yanında Ali Attestasiya Komissiyasının Yer elmləri ekspert komissiyasının üzvüdür.

O, uzun müddət geofiziki məlumatların, geofiziki və geokimyəvi monitorinq nəticələrinin qeyri-ənənəvi interpretasiyası və dərin qatların neftlilik-qazlılıq perspektivinin proqnozu ilə məşğul olub, həmçinin müstəqil olaraq ekoloji geofiziki (ekogeofiziki) problemlərə dair və son illər texnoekogeofizika elminin aktual məsələlərinə dair tədqiqatlar aparıb və Xəzər meqaçökəkliyinin əmələ gəlməsinə dair fərqli modellər mövzusunda beynəlxalq elmi konfranslarda çıxışlar edir.

Dənizdə olan perspektivli strukturların öyrənilməsi, neftlilik-qazlılıq perspektivinin qiymətləndirilməsinə dair ciddi və müdrik qərarları ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra verdi, onun göstərişi ilə Dövlət Neft Şirkəti tərəfindən “Şahdəniz” və digər strukturların geoloji quruluşunun müasir geofiziki üsullarla öyrənilməsinə diqqət artırıldı.

Azərbaycan hökumətinin “Şahdəniz” yatağının kəşfi ilə əlaqədar gördüyü işlər, aparılan tədqiqatlar öz bəhrəsini verdi və “Şahdəniz” yatağı 1999-cu ildə kəşf edildi. Beləliklə də “Şahdəniz” yatağının dünyanın ən böyük qaz-kondensat yataqlarından biri olduğu təsdiqləndi.

“Şahdəniz” perspektiv sahəsinin kəşfiyyatının müsbət nəticəsi Azərbaycan neft sənayesini daha da gücləndirdi, qaz hasilatı sahəsində yeni dirçəliş başlandı. Əhalinin və sənayenin təbii qazla təchizatı sahəsində yeni səhifə açıldı. Yatağın kəşfi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən qonşu strukturlara marağı artırdı. İlkin sazişdə “Şahdəniz” yatağının birgə işlənməsi müddəti 30 il nəzərdə tutuldu. Sazişə görə, Azərbaycan dövləti yatağın istismarına nəzarəti və istismarın idarə edilməsi hüquqlarını özündə saxladı.

Hazırda “Şahdəniz” yatağının ikinci mərhələsinin işlənməsinə başlanıb. Konsorsium üzvləri 2013-cü il dekabrın 17-də Bakıda növbəti tarixi qərara imza atdılar. “Şahdəniz”in yeni müqaviləsini Prezident İlham Əliyev “Yeni əsrin müqaviləsi” adlandırdı. Ölkə başçısı bu müqavilə ilə bağlı deyirdi ki, gələcəkdə “Şahdəniz” qazının əhatə dairəsi genişlənəcək, TAP və TANAP-a yönəldiləcək, ilk mərhələdə layihə çərçivəsində Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya və Albaniya əhatə olunacaq. Sonralar qaz kəmərlərinin balkanlara kimi genişlənəcəyi, Monteneqro və Xorvatiyaya qədər çatacağı, daha sonralar Macarıstan və Rumıniyaya da çatdırılması nəzərdə tutulur.

“Əsrin müqaviləsi”nin müddətinin 2050-ci ilədək uzadılması strateji yol xəritələrində müəyyən edilən inkişaf hədəflərinə daha sürətlə çatmasına imkan verəcək. “Əsrin müqaviləsi” yenidən Azərbaycanı dünyaya neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda nəhəng “Şahdəniz” yatağının kəşf edilməsi və “Şahdəniz” qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac etmək imkanlarına malik bir ölkə kimi tanıtdı. “Şahdəniz” yatağı dünyada zəngin qaz yataqlarından biri olmaqla, həmçinin “Ümid” və “Abşeron” yataqlarının kəşfinə də yol açdı, Azərbaycanın çox böyük qaz ehtiyatlarına malik olduğunu təsdiq etdi.

Azərbaycanın neft-qaz potensialını bilməyən insanlar, hətta bu sahədə çalışan bəzi tədqiqatçılar regionun dərinlik quruluşunu, strukturların geoloji-tektonik əlamətlərini, litoloji-petrofiziki xüsusiyyətlərini və geodinamik-gərginlik şəraitini araşdırmadan karbohidrogen resurslarının yaxın gələcəkdə azalacağını söyləyirlər. Son araşdırmalar, alınan yeni geoloji-geofiziki məlumatlar, Xəzər hövzəsinin yaranmasına dair müasir modellər belə fikirlərin elmi əsası olmadığını və yaxın gələcəkdə daha zəngin neft-qaz yataqlarının açılacağını deməyə əsas verir.

İndiyə kimi toplanmış geofiziki məlumatlar nəzərə alınaraq, biz son illərdə apardığımız tədqiqatlarda Xəzər hövzəsinin yaranmasını Tuço Vilsonun 1965-ci ildə “plyum mantiya” nəzəri fikirlərinə uyğun izah olunan Ş.Maruyamanın işlədiyi modelə istinadən təhlil etməyə başlamışıq. Beynəlxalq konfranslarda, elmi jurnallarda məqalələrimiz çap olunub və bu istiqamətdə elmi tədqiqat işlərimiz davam etdirilir. Bu modeldə nüvə-mantiya keçid zonasında yaranan həyəcanlanma maqmaya oxşar plyumun yer səthinə hərəkətinə səbəb olur. Xəzər hövzəsinə uyğun ərazidə plyum yer qabığına istiqamətlənmiş hərəkət etməklə litosfer qatda şaquli və horizontal yerdəyişmələr yaradır. Plyumun yer qabığına istiqamətlənmiş hərəkəti zamanı spiralvarı və müxtəlif hərəkətlərlə mühitin geodinamik şəraitini dəyişdirib, litosfer qatda soyumağa başlayıb və nəticədə Xəzər hövzəsi yaranıb.

Xəzər hövzəsində çöküntü toplanması prosesi Mezozoydan əvvəl başlayıb, Yura dövründə təxminən eyni tendensiya ilə Yer qabığının intensiv enməsi davam etmiş və maqmatik plyumun yaratdığı burulğanvarı hərəkətin təsirindən çökmə prosesi zamanı dairəvi-spiralvarı sıralanmış “Bahar”, “Şahdəniz”, “Abşeron”, “Şəfəq”, “Məşəl”, “Babək”, “Ümid”, “Bulla-dəniz”, “Asiman”, “Zəfər” və sair antiklinal strukturlar əmələ gəlib və burada böyük həcmdə karbohidrogen potensialı toplanıb. Bu modelə uyğun qeyd olunan strukturlarda, yaxın gələcəkdə, çox zəngin neft və qaz yataqlarının açılacağı labüddür. Hazırda Xəzər dənizində karbohidrogen ehtiyatı 200 milyard kubmetr qazdan və 40 milyon ton kondensatdan ibarət olan “Ümid” yatağının kəşf edilməsi buna sübutdur.

Qeyd olunan nailiyyətlərin qazanılmasında Azərbaycan geofiziklərinin böyük rolu var. SOCAR-ın prezidenti Rövnəq Abdullayev geofiziki tədqiqatların yüksək səviyyədə aparılmasını həmişə diqqətdə saxlayır. Geofiziki cihazların, seysmik tədqiqatlar aparmaq üçün müasir avadanlıqların, quru və dənizdə işlədilən seysmostansiyaların, avtomatik koordinat təyinetmə cihazlarının, səyyar naviqasiya və koordinat-təyinetmə avadanlığının, seysmik dalğa yaradan “AHV-IV” tipli titrədici qurğuların və sair alınmasına şərait yaranır, düzgün işlədilməsi və layihələrin beynəlxalq normalara uyğun icra olunması diqqətdə saxlanılır. Dənizdə seysmik işlər aparan “Geofizik-1” (dalğa mənbəyi və pingirləmə) və “Geofizik-3” ETG-dən (seysmik avadanlığın dənizin dibinə sərilməsi və seysmik yazıların qeydiyyatı), 2 ədəd kiçikhəcmli qayıqlar (Arya tipli) və onları daşımaq üçün 1 ədəd yedək gəmisi, gəmilərdə “Sonar” və “Exolot” avadanlıqları həmişə işlək vəziyyətdə saxlanılır. Bu cihaz və avadanlıqla yerinə yetirilən layihələrdə alınan seysmik məlumatların emalı və interpretasiyasını aparmaq üçün beynəlxalq standartlara uyğun hesablama mərkəzi var. Hesablama mərkəzi müasir, iritutumlu kompüterlərlə və ən qabaqcıl proqramlarla təchiz olunub. İndiyədək Azərbaycanın quru və dəniz sahələrində - “Muradxanlı”, “Qaradağ” və “Qalmaz” qaz anbarları sahəsində, “Xıdırlı-Bəndovan”da və çoxlu sayda başqa ərazilərdə 3D seysmik tədqiqat işləri uğurla başa çatdırılıb və çox dəyərli nəticələr alınıb. Dənizdə “Bahar”, “Qoşadaş”, “Bulla-dəniz”, “Xərə-Zirə” və başqa sahələrdə seysmik tədqiqatlar aparılıb, “Şahdəniz”, “Neft Daşları”, “Oğuz”, “Ümid”, “Babək” və sair sahələrin geoloji-tektonik quruluşu öyrənilib, strukturların perspektivli olduğu əsaslandırılıb və qazılması nəzərdə tutulan quyuların yeri dəqiqləşdirilib.

SOCAR-ın Geofizika və Geologiya İdarəsi Elçin Şirinovun rəhbərliyi ilə bütün ilboyu çox vacib olan layihələri yerinə yetirir. Azərbaycan geofiziklərinin “Şahdəniz”, “Ümid”, “Babək”, “Qoşadaş” və digər strukturlara dair seysmik materialları yenidən araşdırması və bu strukturların çox perspektivli olduğunu təsdiqləməsi, bugünkü neft-qaz potensialının artırılmasına gətirib çıxarıb. Hazırda həm quru ərazilərdə, həm də dənizdə seysmik tədqiqat işləri davam etdirilir və çox dəyərli nəticələr alınır. Geofiziklərin əldə etdikləri nailiyyətlər, Xəzərdə yeni neft-qaz yataqlarının axtarışı işləri yeni yataqların kəşfinə, ölkəmizin uzun müddət təbii qaz və neft hasil etməsinə imkan yaradacaq. Kəşf olunacaq yeni yataqlar neft və qaz hasilatının daha da artmasına təkan verəcək.

“Əsrin müqaviləsi” hələlik təqribən 8-10 kilometr dərinlik intervalda olan neft yataqları timsalında reallaşır. Azərbaycanda dərin qatlarda, 8-15 kilometr intervalda, karbohidrogen potensialının daha geniş olması ehtimalı yüksək olan ərazilərdə, neft və qaz yataqlarının müasir geofiziki üsullarla axtarışına başlamağın da vaxtı çatıb. SOCAR-ın Geofizika və Geologiya İdarəsində bu işləri görməyə kifayət qədər təcrübəli kadr potensialı var. Gələcəkdə texniki bazanı gücləndirmək və yeni texnologiyanı tətbiq etməklə, dərin qatların geoloji-tektonik quruluşunun 3 ölçülü seysmik tədqiqat üsulları ilə öyrənilməsi alınan mədən geofiziki və petrofiziki məlumatların kompleks təhlilinin aparılması artıq günün təxirəsalınmaz məsələlərindən biri kimi diqqət mərkəzində olmalıdır. Məhz bu yolla Azərbaycanı yenə də yaxın gələcəkdə dünyanın zəngin neft ölkələri sırasında görə bilərik. Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması xalqımızı xoşbəxtliyidir, bu gün və gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün ən əsas amildir.

# SOCAR-ın TENDERLƏRİ

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## “Azneft” İstehsalat Birliyi

**strukturuna daxil olan qurumların 2019-cu il üçün müxtəlif ölçülü qayışlara tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11165AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 17.10.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər 236,00AZN, və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic “Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. 2 750,00 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə miqdarında təminat tələb olunur*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

***V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.***

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

**VI. Satınalan təşkilatın ünvanı:**

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, “Azneft” İB

**Əlaqələndirici şəxs:** Səməd Əsədov
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ elektron ünvanı: samad.asadov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 17.10.2019-ci il, Bakı vaxtı ilə saat 11:30 da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Azneft” İstehsalat Birliyinin Satınalmalar qrupu**

# “İLK DİLÇİ AKADEMİK MƏMMƏDAĞA ŞİRƏLİYEV”

AMEA-nın Naxçıvan Bölməsində Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Məmmədağa Şirəliyevin anadan olmasının 110 illiyinə həsr edilən “İlk dilçi akademik Məmmədağa Şirəliyev” mövzusunda elmi konfrans keçirilib.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə baş tutan tədbiri Bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Prezident İlham Əliyevin “Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” 19 iyul 2019-cu il tarixli Sərəncamını xatırladıb. Bildirib ki, həmin Sərəncam Azərbaycan dilçilik elminin inkişafında müstəsna xidmətləri olan alimin fəaliyyətinin təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Məmmədağa Şirəliyevin çoxşaxəli elmi yaradıcılığından danışan İsmayıl Hacıyev bildirib ki, alimin Azərbaycan dilçilik elminin yaranması və inkişafında, onun dünyada, xüsusilə türkdilli ölkələrdə tanınmasında böyük xidmətləri olub.

Onun fundamental “Azərbaycan dialektologiyanın əsasları” əsəri Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülüb.

İsmayıl Hacıyev bildirib ki, yüksəkixtisaslı dilçi kadrların, xüsusilə dialektoloqların hazırlanmasında da Məmmədağa Şirəliyevin böyük xidmətləri olub. Onun rəhbərliyi altında 40-dan çox elmlər namizədi, onlarla elmlər doktoru hazırlanıb.

Diqqətə çatdırılıb ki, elmi irsi dilçiliyimiz üçün dəyərli olan Məmmədağa Şirəliyev Azərbaycan filoloji elmində dilçilik coğrafiyasının banisidir. Onun rəhbərliyi ilə 128 xəritədən ibarət “Azərbaycan dilinin dialektoloji atlası”ı tərtib edilib.

Konfransda, həmçinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Akademik Məmmədağa Şirəliyevin həyatı və elmi fəaliyyəti”, həmin institutun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyevanın “Akademik Məmmədağa Şirəliyev və Azərbaycan dialekt və şivələrinin təsnifi məsələləri”, Dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın “Akademik Məmmədağa Şirəliyev və dialektologiya məsələləri” və Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayevin “Akademik Məmmədağa Şirəliyev və türk dünyası” mövzusunda məruzələri dinlənilib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

# “Oriyentasiya günü”

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) yeni qəbul olunan tələbələr üçün növbəti dəfə ənənəvi “Oriyentasiya günü” keçirilib**





Dünya universitetlərində də hər il ənənəvi təşkil olunan “Oriyentasiya günü”nün məqsədi yeni qəbul olunan tələbələri universitet həyatı ilə tanış etmək, onlara tədris prosesi barədə ətraflı məlumat vermək və əyləncəli, pozitiv gün yaşatmaqdır.

UNEC-in bütün tədris binalarında və Zaqatala filialında təşkil olunan “Oriyentasiya günü”ndə tyutorlar və müəllim mentorlar yeni qəbul olunan tələbələrə məlumatlar verib, tələbə könüllülər isə onlara universitetlə tanışlıqda bələdçilik ediblər.

Birinci kurslar üçün universitetin həyətində tələbə təşkilatlarının, Karyera Mərkəzinin, UNEC Startap və “Enactus”un stendləri də quraşdırılıb. Stendlərdə onlara tələbə təşkilatlarının fəaliyyət istiqamətləri və həyata keçirilən layihələr, tələbələrin sosial həyatı barədə ətraflı məlumat verilib. UNEC Startap və Enactus stendlərində isə yeni startap ideyalarının, beynəlxalq yarış və reallaşdırılan layihələrin nümayişi keçirilib, komandaya yeni üzvlər cəlb olunub. UNEC-in Karyera Mərkəzi universitet sıralarına yeni daxil olan tələbələrə karyera quruculuğu ilə bağlı məsləhətlər verərək, mərkəzin fəaliyyətindən söz açıblar, onlara Karyera planlama testi təşkil ediblər.

“Oriyentasiya günü”ndə tələbələr elektron monitorlarda yerləşdirilən dərs cədvəlləri ilə tanış olublar. Elektron monitorlar vasitəsilə daxil olduqları fakültə haqqında, tələbə təşkilatlarının fakültə nümayəndəlikləri, ikinci əlaçı təqaüdü qazanan və fəal tələbələri, eyni zamanda UNEC-in ikili diplom proqramları barədə məlumatlar əldə ediblər.

Tədbirdə UNEC Yaradıcılıq Mərkəzinin üzvlərinin ifasında musiqilər səsləndirilib, birinci kurslar üçün əyləncəli və intellektual oyunlar, idman yarışları keçirilib. Prezident təqaüdçüləri tədbir zamanı “Radio UNEC”in canlı yayımında universitet barədə fikirlərini bölüşüblər.

Qeyd edək ki, UNEC-ə 2019/2020-ci tədris ilində 4799 tələbə qəbul olunub, onların 3273 nəfəri bakalavr, 1526-sı isə magistrdir.

# Kimdir Rəşid Hacılı: siyasətçi, hüquqşünas, yoxsa sadəcə maxinator?




Keçmiş Media Huququ İnstitutunun (MHİ) rəhbəri Rəşid Hacılı Azərbaycan jurnalistlərini təhqir edib, onları bioloji varlıqlara oxşadıb. Ayıbdır, özünü hüquqşünas və təşkilat rəhbəri adlandıran bir şəxsə yaraşmayan addımdır. Təhqirə yol verirsə, deməli, özü də təhqiri qəbul etməyə hazır olan biridir.

Həm də ölkə jurnalistlərini o adam təhqir edir ki, özü zaman-zaman riyakarlıqda ittiham edilib. Media adamı olduğunu elan edən bu şəxs 2013-cü ildə paralel şəkildə rəsmən qondarma "Milli Şura"nın üzvlüyünü qəbul edib, siyasətə qoşulub. "Milli Şura" təmsilçisi qismində müsahibələri var. "Siyasi fəaliyyətlə jurnalistikanın sintezini" yaratmaq istəyib. Amma nə siyasətdə yarıdıb, nə də media sahəsində.

"Siyasi məhbus siyahısı" məsələsində dolaşıq, müəmmalı hərəkətlərinə görə öz cəbhədaşları tərəfindən riyakarlıqda ittiham edilib, çıxdaş edilib. "Siyasi məhbusların" hüquqlarını məhkəmə müstəvisində müdafiə etmək üçün külli miqdarda qrant vəsaitləri alıb. Amma "müdafiə etdiyi" şəxslərə siyasi partiyalara mənsubiyyətlərinə görə fərq qoyub. Öz düşərgəsinə yaxın olanları "siyasi məhbus" sayıb, digərlərinə isə, sadə dildə desək, ögey yanaşıb. Amma bu yanaşmasını ört-basdır edə bilməyib, ifşa olunub. Bunu biz demirik, öz cəbhədaşları deyirlər. 2014-cü ildə cəbhədaşları ilə savaşı da bu səbəbdən baş verib və media müstəvisinə çıxıb. Marağı olanlar linkə daxil olub baxa bilərlər (https://www.facebook.com/rashid.hajili/posts/4412835335552). Bu yazışmalardan aydın olur ki, cəbhədaşları onu riyakarlıqda,



Müşfiq Ələsgərli

maxinasiyalarda ittiham edirlər. Hətta irəli gedib onu hakimiyyətə işləməkdə ittiham edənlər də tapılıb. Bəziləri dəlillər gətirərək qeyd ediblər ki, Rəşid Hacılı "müdafiə etdiyi" şəxsləri təkcə siyasi partiyalara mənsubiyyətinə görə fərqləndirməyib, həm də "yuxarıdan aldığı sifarişə görə təsnifatlaşdırıb". Cəbhədaşları MHİ rəhbərini "yuxarıya bağlayan xətt" barədə də təsəvvürləri ni bölüşüblər, onun məmur qohumlarını istiqamət veriblər. Bizim bu məqamla işimiz yox. Amma görünür, MHİ rəhbəri özü belə xarakterdə olduğu üçündür ki, indi başqalarına da ləkə atır, jurnalistləri siyasi sifarişlə, məmurlardan aldıqları tapşırıqlar əsasında işləməkdə ittiham edir, onları ələbaxan bioloji varlıqlarla müqayisə edir. "Güzgüyə baxıb adını özgəyə qoyan" bioloji varlıq haqqında misallar boşundan yaranmayıb.

Amma MHİ rəhbərinin "hakimiyyətə işləməyi" də birmənalı olmayıb. 2015-ci ildə Rəşid Hacılının rəhbərlik etdiyi Media Hüquqları İnstitutunun bank hesabına həbs qoyulub. Səbəb media hüquq müdafiəçiliyi adı altında qrantlar alınması və həmin qrantların təyinatı üzrə xərclənməməsi, hesabatlılığın düzgün qurulmamasıdır. Rəşid Hacılı "mənşəyi bilinməyən" qrantlar və "mənşəyi bilinməyən istiqamətlərə" xərcləmələr məsələsinə aydınlıq gətirməyib. Sadəcə ölkədən çıxıb gedib.

İndi ayılıb və ağlına gəlib ki, ölkə jurnalistlərinin peşəkarlığını araşdırsın. Maraqlıdır, görən Rəşid Hacılının baxışındakı "peşəkar jurnalistin" meyarları nədir?

---

# "Dəmir qala qapısı - Sədərəyin keçmişi və bu günü"

Qədim Sədərək torpağı hər zaman öz igid övladları və qəhrəman keçmişi ilə Azərbaycan tarixində məxsusi yerə malik olmuşdur. Bu məxsusilik təkcə Sədərəyin qəhrəman keçmişi ilə deyil, həm də bərəkətli torpağı, strateji əhəmiyyət daşıyan coğrafi mövqeyi, dərin bilik və bacarığı, intellektual səviyyəsi ilə təkcə Azərbaycanda deyil, həm də dünyanın bir çox yerlərində özünə hörmət qazanmış, amma hər zaman ürəyində Vətən sevgisi, yurd həsrəti daşıyan övladları ilə özünü büruzə verir. Elə buna şəxsiyyətlərdən biri də qədim türk-oğuz yurdu Sədərəyin yetirməsi olan Hacı Tofiq Seyidzadədir. O, Sədərəyə, sözün əsl mənasında, vurğun insandır. Tofiq müəllimin Sədərəyə - doğma yurduna vurğunluğu onun bu qədim məkanın tarixini öyrənməyin vacib olduğunun dərki ilə üst-üstə düşdüyündən Sədərək haqqında müxtəlif mənbələrdə gizlənən məlumatları toplamağı və ömrü-həyatı Sədərəklə bağlı olan insanların fəaliyyətini işıqlandırmağı özü üçün bir şüara, həyat amalına çevirmişdi. Elə buna görə də qədim yurda həsr etdiyi onlarla kitabı onun vətənpərvərlik xarakterinin simvolu kimi dəyərləndirilə bilər. Bu kitablardan biri də bu il - 2019-cu ildə nəşr olunmuş "Dəmir qala qapısı - Sədərəyin keçmişi və bu günü" kitabıdır.

Əməkdar elm xadimi, professor Süleyman Məmmədovun məsləhətçisi və rəyçisi olduğu kitabın redaktorları Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosentləri İbadulla Məmmədov və Sədaqət Hüseynovadır.

Muxtar respublikamızın yetirdiyi dəyərli akademiklər İsmayıl Hacıyev və İsa Həbibbəylinin kitabın əvvəlində müəllif haqqındakı fikirləri də hacı Tofiq Seyidovun məhsuldar tədqiqatçı-jurnalist kimliyi və bu obrazdan doğan növbəti kitabının oxunaqlılığı haqqında ilkin fikir formalaş-




dırır.

Tədqiqatçı kitabda Naxçıvan MR Sədərək rayonunun tarixi haqqında maraqlı məlumatlar təqdim edir. Bununla yanaşı, Sədərək sözünün etimologiyası haqqında müxtəlif fikir və məlumatları ümumiləşdirərək toponimin "Çuxur Səəd" kimi açıqlanmasını daha məqsədəuyğun hesab edir. Bu izahı tarixi faktlarla əsaslanaraq aydınlaşdırmağa çalışır və yazır ki, Sədərək sözünün XIV əsrdə yaşamış qəbilə başçılarından olan Səədin adı ilə bağlayırlar. Şah İsmayıl Səfəvinin Ağqoyunlu Əlvənd Mirzə ilə döyüşündən (1501) bəhs edən Həsən Rumlu söyləyir ki, bu hadisə Çuxur Səəddə - Şərur adlı yerdə baş vermişdi. Tədqiqatçı əlavə edir ki, bu regionda "Səəd" sözünü öz kökündə qoruyub saxlayan yeganə toponim Sədərəkdir və ola bilsin ki, məkanın adı da bununla bağlıdır. Tədqiqatçı Sədərək sözünün təkcə elmə əsaslanan etimologiyasını deyil, həm də xalq dilində yaşayan, xalq təfəkkürünün məhsulu olan açıqlamalarını da təqdim edir. El arasında "Se-dərə - Üç dərə" kimi açıqlaması verilən bu məkanda, həqiqətən də üç dərə mövcuddur: Çanacıçay, Cəhənnəmdərə və Bağırsaqdan su gələn dərə.

Tarixin müxtəlif dönəmlərində Sədərək mühüm yaşayış məntəqəsi kimi məşhur olub. Buna səbəb ərazinin ticarət üçün əlverişli coğrafi mövqedə yerləşməsidir. Elə buna görə idi ki, Avropa və Şərq ölkələrinin böyük ticarət karvanları, onlarla bərabər səyyahlar buradan gəlib keçiblər. Səyyahlardan bəziləri öz yol qeydlərində Sədərək haqqında maraqlı fkirlər yazmış və həmin qeydlərin bir çoxu dövrümüzə qədər gəlib çatmışdır. Tofiq Seyidzadə bu qeydlərdən bəzilərini də kitaba daxil etmişdir.

Kitabda, həmçinin qədim Sədərək torpağının sərhədinin müəyyənləşdirilməsi barədə tarixdə mövcud olan məlumatlar da təqdim edilir.

Sədərəklilərin hər zaman döyüşkən, mübariz camaat olduğu məlumdur. Ən çətin anda belə öz canından keçər, amma bircə qarış torpağını heç kimə verməz Sədərək camaatı. Elə mənfur düşmənlərin Naxçıvana göz dikdiyi o ağır illərdə də sədərəklilər öz cəsarətlərini nümayiş etdirdilər. "Sədərək döyüşləri" adı ilə tarixə həkk olunan bu döyüşdə xalq torpağı uğrunda canından kecsə də, məğlub olmadı.

18 yanvar 1990-cı ildə mənfur düşmən onunla sərhəddə yerləşən Sədərək torpağını müxtəlif növ silahlardan atəşə tutdu. Yanvarın 19-da rayona atılan ilk top mərmisindən rayonun azyaşlı sakinləri - Malik və Elvin Nəsirov qardaşlarının həyatına son qoyuldu. Sonrakı döyüşlərdə də Sədərəyin, eləcə də Naxçıvan MR-in digər regionlarının qəhrəman oğulları cəsarətlə vuruşaraq öz ata-babalarının onlara tapşırdığı müqəddəs torpağı düşmən əlinə keçməkdən xilas etdilər. Düşmənn məqsədi öncə Sədərəyi, sonra Şəruru və Naxçıvanı ələ keçirmək idi. 1000 hektar torpağı olan Kərki düşmən əlinə keçsə də bütöv Naxçıvan bu fəlakətdən qurtuldu.

Kitabda yer alan "Məscidlərimizin tarixi" adlı məqaləsində müəllif Sədərəkdə görülən arxeoloji tədqiqatlar zamanı qədim tarixə malik məscidlərin aşkara çıxarılması barədə söhbət açır, qədim As tayfasının adı ilə bağlı olan Asnı məscidi, Qurbanlı və Qırxmırlı məscidləri haqqında mənbələrdə mövcud olan məlumatları ümumiləşdirərək təqdim edir.

Tofiq Seyidzadə Sədərəyin xatirəsi yaddaşlarda hər zaman yaşayacaq övladları sırasında müəllimlərdən daha çox bəhs edir. O müəllimlər ki, elə Tofiq Seyidzadənin özünün də belə bir Vətən eşqinin, yurd sevgisinin yaranıb formalaşmasında danılmaz rola malik idilər. Tofiq müəllim kitabda Yusif Qasımov, özünün ilk müəllimi Əli Əliyev, Rza Rzayev, Həsən Əliyev və başqaları haqqında məlumat verir, onları unutmağın böyük günah olduğunu vurğulayır.

Sədərək torpağı etnik-milli düşüncədə mövcud olan kodlar sistemidir. Bu kodları aşkarlayan Azərbaycanın alimləri sırasında qəlbi hər zaman vətən sevgisi ilə vuran Sədərək ziyalıları da var. Bu şəxsiyyətlər içərisində mərhum ziyalı, türkoloq alim Cəfər İsmayıl oğlu Cəfərovun da adı çəkilir. Cəfər müəllim türkçülük ideyasının təbliğatçısı kimi öz ömür yolunu bu hədəfə tuşladı. Alim maraqlı türkoloji, tarixi və dilçilik araşdırmalar müəllifi olmaqla yanaşı, qədim Naxçıvan torpağının vurğun şairi idi. Elə elmi araşdırmalarının nəticələrindən aldığı zövqü şeirləri ilə ifadə etməyi onun torpağa, vətənə bağlı bir ziyalı ömrü sürməsinin ifadəçisidir. Tofiq Seyidzadə bu kitabında bir çox Sədərək ziyalıları kimi, Cəfər müəllimin də ömür yoluna səyahət edir, onun "Azərbaycan torpağıdır Qarabağ" şeirini bütöv şəkildə oxuculara təqdim edir.

Sədərək əhalisinin yaddaşında hər zaman xeyirxah insan obrazı olan Teymur Mehdiyev idi. O, Sədərək Xeyriyyə Cəmiyyətini təsis edərək, bu Cəmiyyət vasitəsilə Sədərək və sədərəklilər üçün etdiyi unudulmaz yaxşılıqların sahibidir. Tofiq Seyidzadə də belə şəxsiyyətin ömür yolunu müasir gəncliyə tövsiyə edərək, kitabında onun haqqında ətraflı məlumat verir.

"Elm və təhsil" nəşriyyatında çapdan çıxmış 228 səhifəlik bu nəşr müəllifin sayca 87-ci kitabıdır.

**Aytən Cəfərova,**
filologiya üzrə fəlsəfə doktoru,

**Asəf Orucov,**
tarix üzrə fəlsəfə doktoru
AMEA Naxçıvan Bölməsi

---

## DEPUTATDAN AZTƏMİNATLI AİLƏLƏRİN UŞAQLARINA HƏDİYYƏ



YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev yeni tədris ili ərəfəsində övladları bu il 1-ci sinfə qədəm qoyan aztəminatlı ailələri ziyarət edib.

Naqif Həmzəyev qarşıdan gələn 15 sentyabr - "Bilik Günü" münasibətilə valideynləri və şagirdləri təbrik edib, onların arzu və istəklərini dinləyib.

Balacalarla ayrıca söhbət edən deputat onlara məktəbin müqəddəs ocaq olduğunu bildirib və qeyd edib ki, məktəbdə gənc nəslə Vətəni, xalqı, valideynləri sevmək öyrədilir. Çalışın ki, hər biriniz Vətənə layiqli övlad olasınız. Bunun üçün isə yaxşı oxumaq lazımdır.

Deputat birincilərə gələcək təhsillərində uğurlar, müvəffəqiyyətlər arzulayıb, onlara çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edib.

# “Narkotikaya yox deyək”




Ölkə ərazisində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə sahəsində hüquqi məsələləri tənzimləyən qanunvericilik bazasının yaradılması və bu bazanın dəyişən şəraitə və tələblərə uyğunlaşdırılması Azərbaycan dövlətinin və müvafiq qurumların əsas fəaliyyət istiqamətlərindən biri olmuşdur.

Belə ki, bu məsələ ilk dəfə ümummilli lider Heydər Əliyevin “Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” 26 avqust 1996-cı il tarixli Fərmanında öz əksini tapmaqla, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması və narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmiş, həmçinin narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri dəqiq göstərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı Mingəçevir şəhərində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı aparatı yanında fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiya tərəfindən hər il bu sahədə görüləcək işlərlə bağlı iş planı tərtib olunmuş, şəhərin aidiyyəti təşkilatlarına göndərilərək icrasına nəzarət edilmişdir.

İş planına uyğun olaraq şəhərdə fəaliyyət göstərən 1 ali, 2 orta ixtisas, 1 peşə və 22 ümumtəhsil məktəblərində təhsil alan tələbə və şagirdlərlə vaxtaşırı görüşlər təşkil olunur. Hesabat dövründə şəhərin ümumtəhsil məktəblərində “Zərərli vərdişlərin qarşısının alınması” mövzusunda tədbirlər təşkil olunmuş, şagirdlərlə maarifləndirici söhbətlər aparılmışdır. Tədbirlərdə şəhər İcra Hakimiyyətinin, Polis şöbəsinin və Narkoloji dispanserin nümayəndələri məruzələr etmiş, şagirdlərə zərərli vərdişlərdən uzaq olmaları tövsiyə olunmuşdur. Gənclərlə “Narkotikaya yox deyək”, “Əsrin bəlası”, “Ağ ölüm” və s. mövzularda söhbətlər aparılmış, “Dəyirmi masa”lar, inşa və rəsm müsabiqələri keçirilmiş, film və videolar, videoçarxlar və lentlər nümayiş etdirilmişdir. Şəhərin təhsil müəssisələrində keçirilən tədbirlər yerli və respublika KİV-lərində işıqlandırılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası məqsədilə 26 iyun-BMT-nin Narkotiklərlə Mübarizə Günü ilə əlaqədar Mingəçevir şəhərində narkomaniya, onun doğurduğu fəsadlar və s. barədə maarifləndirici tədbirlər keçirilmişdir. Yerli komissiya tərəfindən tərtib edilmiş qrafikə uyğun olaraq tədbirlər Mingəçevir Dövlət Universiteti, Tibb və Turizm kollecləri, Peşə məktəbi, şəhər Təhsil və Mədəniyyət şöbələri, Gənclər və idman idarəsi və şəhər Mərkəzi xəstəxanasında keçirilmişdir.

2013-2018-ci illərdə narkotik vasitələrin qeyri-qanuni hazırlanması, əldə edilməsi, saxlanması və ya satışı ilə bağlı 370 cinayət faktı aşkarlanmış, 370 cinayət faktı üzrə istintaq aparılmışdır. Əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılan şəxslərdən 378,888 qram heroin, 7647,187 qram qurudulmuş marixuana, 766,96 qram marixuana, 10,87856 qram çətənə, 1 ədəd gül dibçəyində çətənə, 6 ədəd çətənə gövdəsi, 465,234 qram tiryək, 14689,3 qram kanabis bitkiləri, 35,4 qram həşiş qətranı, 0,464 qram metofentomin, 9 ədəd (kapsul) preqabalin dərman preparatı götürülmüş, yandırma üsulu ilə məhv edilmişdir. Cinayətkarlar arasında yetkinlik yaşına çatmayanlar olmamışdır.

Hesabat dövründə şəhər xəstəxanası və apteklərindən qanunsuz əldə edilmiş dərman preparatlarının istifadəsinə dair cinayət faktları aşkar edilməmişdir.

2007-ci ilin may ayından başlayaraq “Xaş-xaş” şərti adı altında keçirilən cinayət axtarış tədbirləri davam etdirilmiş və bu sahədə 9 cinayət faktı aşkarlanmışdır.

Müvafiq dövrdə Mingəçevir Rayonlararası Narkoloji Dispanserinə 321 nəfər xəstə daxil olmuşdur, Xəstələrdən 230 nəfəri ətraf rayon əhalisi, 91 nəfəri isə şəhərdəndir. 203 nəfər anonim müalicə almış, onlar arasında yeniyetmələr olmamışdır.

Hazırda dispanserdə 520 nəfər xəstə qeydiyyatdadır.

Əvvəlki illərdə olduğu kimi, bu müddət ərzində də KİV-də mütəmadi olaraq narkomaniyanın insan sağlamlığına və həyatına yaratdığı təhlükə ilə əlaqədar materiallar və reklam çarxları hazırlanaraq geniş tamaşaçı auditoriyasına təqdim olunmuşdur. Bununla yanaşı yerli mətbuat orqanları olan “Mingəçevir” və “Mingəçevir işıqları” qəzetlərində də narkomaniyaya qarşı mübarizə mövzularında bir sıra məqalələr çap edilmişdir.

Mingəçevir şəhərində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı təsdiq edilmiş plana uyğun tədbirlərin icrası davam etdirilir və daimi nəzarətdə saxlanılır.

**İlham İsmayılov,**
*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri*

# Tələbələrlə görüş

**Dünən Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında bu il ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirildi.**



Tədbiri YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov açaraq təhsilin inkişafına göstərilən dövlət qayğısından və bu sahədə əldə edilən uğurlardan danışdı. Bildirdi ki, təhsilin inkişafı ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Tədris müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, yeni məktəb binaları inşa edilir, mövcud məktəb binaları təmir olunur və ya yenidən qurulur. Respublikamızın digər bölgələrində olduğu kimi, Samux rayonunda da təhsilin inkişafı istiqamətində mühüm işlər görülür. Təhsilə göstərilən xüsusi diqqət və qayğının nəticəsidir ki, rayon üzrə ali məktəblərə daxil olanların sayı ildən-ilə artır.

Samux Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə Xəlilova tədbirdə çıxış edərək vurğuladı ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün fəaliyyəti dövründə təhsilə çox böyük önəm vermişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün uğurla davam etdirilir. Kəmalə Xəlilova daha sonra qeyd etdi ki, Samux rayonunda bu il attestat alan məzunların sayı 434 nəfər, ali məktəbə sənəd verən məzunların sayı 304 nəfər olmuşdur. Onlardan 171 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Ali məktəbə qəbul olunanlardan 22 nəfər 500-dən yuxarı, 2 nəfər isə 600-dən yuxarı bal toplamışdır. Ali məktəbə qəbul imtahanlarında iştirak edənlər arasında xeyli gənc keçid balı toplayaraq orta ixtisas məktəblərinə qəbul olunmuşlar.

Tədbirdə Qarayeri 1 saylı məktəb-liseyin direktoru Bəsti Mahmudova, 2 saylı Samux şəhər tam orta məktəbinin direktoru Əminə Cəfərova, tələbə məzunlar - İlham İsayev, Leyla Qurbanova, Həbibə Qarayeva, Leyla Camalzadə, Əfsanə Əliyeva çıxış edərək bütün bu uğurları qazanmaqda onlara şərait yaradan ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonda uğurlu nəticələr əldə etmiş tələbələrə qiymətli hədiyyələr təqdim edildi.

**Vəli İlyasov,**
**“İki sahil”**

# Özəl sektorun ixracdakı payı 3,728 milyard dollar olub



Ölkəmizin müxtəlif bölgələrində sənaye məhəllələrinin salınması, aqrar parkların yaradılması infrastruktur şəbəkələrinin genişləndirilməsinə, aqrar sahədə məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə və diversifikasiyasına, eləcə də ölkənin xarici ticarət dövriyyəsinin artmasına böyük töhfələr verib.

Son illərdə aqrar sektorda rəqabət qabiliyyətli məhsulların istehsalını artırmaq yolu ilə respublikamıza dayanıqlı valyuta axınını təmin etmək, qeyri-neft sektorunun inkişafı hesabına bir çox məhsul növləri üzrə idxaldan asılılığı aradan qaldırmaq yolunda mühüm nailiyyətlər əldə edilib. Dövlət proqramları çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində regionlarda rəqabət qabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən müəssisələr yaradılıb, bir çox məhsullarımız artıq dünyanın müxtəlif ölkələrinə ixrac olunaraq, qeyri-neft ixracını artırıb. Qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr olan kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesində mühüm uğurlar əldə edilib.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla bölgələrin davamlı inkişafında və “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, eləcə də ölkə əhalisinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayıb. Qəbul olunan proqramların uğurlu icrası yoxsulluğun azaldılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artmasına, bütövlükdə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə ciddi təkan verib.

Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, şübhəsiz ki, bu da ümumi ixracatda qeyri-neft sektorunun payının artmasına təsirsiz ötüşmür: “Xüsusilə qeyri-neft ixracı ilə bağlı atılmış addımlar artıq öz gözəl nəticələrini verməkdədir. Biz təşviq sistemini tətbiq etməyə başladıq. Mən əvvəlki illərdə də bu barədə demişdim. Çünki bir neçə ölkədə təşviq sistemi özünü doğrultmuş və ixracın sürətli artımına gətirib çıxarmışdır. Biz dünyada mövcud olan ən qabaqcıl təcrübəni öyrənmişik və Azərbaycanda investisiyanın və ixracın təşviqi sistemlərini tətbiq etməyə başlamışıq”.

2019-cu ilin yanvar-iyun aylarında Azərbaycana ümumi dəyəri 9,979 milyard dollar olan məhsul ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 15,2 faiz çoxdur. Dövlət sektorunun ixracdakı payı 6,218 milyard dollar, özəl sektorda 3,728 milyard dollar olub. Ümumiyyətlə, bu ilin birinci yarısında Azərbaycanın xarici ticarət əməliyyatları 2018-ci ilin eyni dövrü ilə müqayisədə demək olar ki, 27,6 faiz artaraq 16,994 milyard dollara çatıb. Hesabat dövründə Azərbaycan 2397 növ mal ixrac edib. 177 ölkə Azərbaycanın xarici ticarət tərəfdaşı olub. Hesabat dövründə ümumilikdə 21 177 hüquqi və fiziki şəxs xarici iqtisadi fəaliyyətdə iştirak edib. Ən yüksək ixrac həcmi aprel ayında müşahidə edilib. Həmin ayda ölkədən 2.605 milyard dollar dəyərində mal ixrac edilib və ixracatın aylıq artımı 1,272 milyard dollar olub.

İlin əvvəlindən başlayaraq qeyri-neft sektoruna yönləndirilmiş kapital qoyuluşlarının qabaqlayıcı formada inkişafı bunu deməyə əsas verir ki, yaxın və orta-müddətli perspektivdə bu göstəricilərin daha da yüksək inkişaf dinamikası üzrə dəyişəcək. Bütün bunların isə çox ciddi sosial-iqtisadi effekti olacaq. Bu da həm əhalinin məşğulluğunun, onun sosial imkanlarının artmasına, həm də sosial müdafiəsi ilə bağlı məsələlərin öz həllini tapmasına böyük töhfələr verəcək. Bütün bunlar bir daha təsdiq edir ki, respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi amilin ön planda olmasıdır.

**Zahid Rza,**
**“İki sahil”**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya İdarəsi

**laboratoriya malları-zərdablar, pipetlər, şüşə qablar və s. olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (210014-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 00.09.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-qədər Azərbaycan və ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi və tələb olunan digər sənədlər Azərbaycan dilində texniki (texniki təklif qiymət olmamaq şərti ilə verilməlidir) və maliyyə təklifləri ayrı-ayrı zərflərdə təqdim olunmaqla hər biri üç nüsxədə (bir nüsxədə əsli və iki nüsxədə surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə 00.10.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər 118 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı (tələb olunmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin 0 %-i məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 0%-i məbləğində tələb olunur.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir. Avans ödənişinin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029____________________(indeks nömrəsi);
Bakı şəhəri____________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121_______________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**
İsmayıl Mirzəyev ________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______________ (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 _______________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az ___________ (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 00.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya İdarəsi

**müxtəlif həcmli kompozit çənlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (210016-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-qədər Azərbaycan və ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi və tələb olunan digər sənədlər Azərbaycan dilində texniki (texniki təklif qiymət olmamaq şərti ilə verilməlidir) və maliyyə təklifləri ayrı-ayrı zərflərdə təqdim olunmaqla hər biri üç nüsxədə (bir nüsxədə əsli və iki nüsxədə surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə 14.10.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər 59 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı (tələb olunmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin 0 %-i məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 0%-i məbləğində tələb olunur.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir. Avans ödənişinin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 20 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029____________________(indeks nömrəsi);
Bakı şəhəri____________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121_______________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**
İsmayıl Mirzəyev ________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______________ (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 _______________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az ___________ (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 14.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

16

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 168 (7423) / Şənbə, 14 sentyabr 2019-cu il


## "Bilik Günü"nüz mübarək!




*Bu gün yeni dərs ili*
*Başlanır...səhər-səhər*
*Məktəblərə yollanır*
*Al yanaqlı körpələr*
**(Bəxtiyar Vahabzadə)**

Bir neçə gün sonra yeni tədris ilinin başlanması - "Bilik Günü" təntənə ilə qeyd olunacaq. Bu il sentyabrın 15-i həftənin bazar gününə təsadüf etdiyi üçün ilk dərs günü sentyabrın 16-da keçiriləcək.

2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış, beləliklə, həmin gün "Bilik Günü" elan edilmişdir.

"Bilik Günü" - bu günün sevincini yaşayan hər bir kəs üçün bir başqa özəl və gözəl gün olaraq əlamətdar məzmun daşıyır. Bu gün şagirdlərin, tələbələrin, valideynlərin xəyallarına, arzularına qovuşmasına zəmin yaradan, yeni həyat yolunun başlanğıcı olan tarixdir.

Yeni tədris ilinin ilk günü bütün ali və orta məktəblər öz qapılarını şagirdlərin, tələbələrin, müəllimlərin, valideynlərin üzünə açır. "Bilik Günü" məktəb həyatına qədəm qoyan birincilər və onların valideynləri üçün səbirsizliklə, sevinc və həyəcanla gözlənilən əlamətdar bir gündür. Birincilər ev-bağça mühitindən uzaqlaşıb elmə gedən yol istiqamətində seyrə çıxırlar. Bu, onların ilk tədris ilində ilk bilik bayramıdır. "Bilik Günü" onların məktəbli geyimində, əlində bir dəstə gül, çiynində çantası məktəbə qədəm qoyduqları birinci gündür. Dünənədək qayğısız gəzib-dolanan bugünkü birincilər tezliklə əlifba ilə tanış olacaq, yazıb-oxumağı öyrənmək üçün səy göstərəcəklər. Daha sonra onlar kitabxanalara gəlib, kitablar oxuyacaq, şeirlər əzbərləyəcəklər. Parta arxasında əyləşərək sevimli müəllimlərimdən biliyin dərinliklərini öyrənəcəklər. Lövhə qarşısına çıxıb dərs danışacaq, əllərinə təbaşir alaraq qara lövhə üzərinə ağ hərflərlə yazılar yazacaqlar. Bəzən anaları üçün darıxıb ağlayacaqlar, ilk müəllimləri isə onları bağrına basaraq sevgi və nəvazişlə təsəlli verəcək, yumşaq saçlarına sığal çəkərək məsum yanaqlarına qonmuş gözyaşlarını siləcəklər. Birincilərin təzə kitab səhifələrinə toxunacaq yumşaq və balaca əlləri, maraqla baxan gözləri və çətinliklə oxumağa çalışdığı yarımçıq sözlər...

Məktəb illərini özləri üçün ən şirin, qayğısız, duyğulu illər elan edən on birincilər də "Bilik Günü"nü xüsusi, bir az da qəmli əhvalda qeyd edəcəklər. Axı, onlar orta məktəblə vidalaşıb, ali məktəbə salam deyəcəklər. Məktəb yoldaşlarından, məktəb müəllimlərindən, uşaqlıq xatirələrindən, məktəb yollarında qoyduqları izdən ayrılıb başqa bir mühitin sakininə çevriləcəklər.

Orta məktəbə addım atan birincilər kimi, ali məktəb həyatinə daxil olan, universitet qapılarını açan "birincilər" də var. Bu, həm də onların müstəqil həyatın pəncərələrini açmaları deməkdir. O elm ocağında öyrəndikləriniz sayəsində hərəniz bir ixtisas sahibi olacaqsınız.

"Bilik Günü" həm də valideynlərin günüdür. Əziyyətlə böyütdükləri övladlarının orta və ya ali məktəbə hazırlaşmalarını, həyəcanlanmalarını, tələşlarını seyr edirlər. Bir əliylə övladının əlini, digəri ilə məktəbli çantasını tutaraq məktəb yollarına doğru onunla birgə addımlayırlar. İlk dərs günündə övladları kimi, onlar da həm sevincli olur, həm də bu günün yaratdığı hisslərin təsiri altında həyəcan keçirirlər. Övladlarının əsl vətəndaş, savadlı şəxsiyyət olması üçün həm maddi, həm də mənəvi gücündən istifadə edən valideynlər saatlarla ayaqüstündə dayanaraq onları sinif otaqlarına yola salırlar.

Və sinif otağında şagirdlərini gözləyən müəllimlər... Müəllim... Adi söz deyil bu... Müəllimlik müqəddəs və şərəfli peşədir. Əsl müəllim sanki bir günəşdir. Gözünün nurunu damla-damla şagirdlərinin yoluna səpən, bunun nəticəsində gözü nurdan düşsə də özü daim məğrur, adı daim uca olan günəş... Müəllim bir günəşdir. Hər axşam qürub edən günəş hər səhər yenidən doğulduğu kimi, müəllim də yaşının üstünə yaş gəldikcə ömrünün qürub çağını yaşasa da, şagirdlərin simasında yenidən doğulur, yenidən dünyaya gəlir. Deməli, əsl müəllim əbədi yaşayır. Müəllim əməyinin nəticəsində formalaşan cəmiyyətdə savadli, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti dahada inkişaf etdirirlər.

**P.S. Yeni dərs ili və "Bilik Günü" münasibətilə bütün müəllimləri, valideynləri, tələbələri, şagirdləri, ən əsası isə "birinciləri" təbrik edirik. Sizlərə yeni uğurlar, nailiyyətlər, bolluca müvəffəqiyyətlər, cansağlığı arzulayırıq!..**

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

## Məqsədlərimizə necə çata bilərik?

Bizim hamımızın həyatımızda müəyyən istəklərimiz var, problem isə bu istəklərə çatmaqdır. Məqsədə çatmaq həmişə asan deyil, bəs burada hansı hiylələr var? Bununla bağlı bir neçə fikirlər olsa da, bu suala cavab tapmaq heç də asan deyil:

**Özünə inam**

Özünə inam hər şeyə başlamaq üçün bir açardır. Biznesə təkcə işini sevməklə başlaya bilməzsən, eyni zamanda, özünə inanmaq da lazımdır. Bu hansısa başlanğıc üçün irəliləyişdir.

**Məqsədə çatmağın yolunu fikirləşmək**

Əgər müəyyən bir məqsədə çatmaq üçün çalışırsansa, əvvəlcədən planlaşdırma vacibdir. Məqsədlərə nail olmaq üçün lazım olan hər bir addımı təsvir etmək vacibdir. Bu addımları təsvir elə və bir anlıq onları gözünün qarşısına gətir. Bu həm planlaşdırmanın çox asan bir yoludur, həm də məqsədə çatmaq üçün heç nəyi unutmamağa kömək edir.

**Yatmazdan əvvəl addımlarınızı planlaşdırın**

Bəli, yatmazdan əvvəl hər bir addımı düşünmək sizə təkcə məqsədə çatmaq üçün kömək etməyəcək, eyni zamanda, öz arzularınız haqqında düşünməyə də vadar edəcək. Mən çox vaxt öz məqsədlərim və gündəlik həyatım haqqında fikirləşirəm, bu mənə nə edəcəyim haqqında təcrübə verir. Yatanda sizin beyninizin həqiqət və fantaziya arasındakı fərqi hiss etmədiyini bilirsinizmi?

**Çalış, mübarizə apar və pozitiv ol**

Sizin məqsədləriniz çalışmadan, işləmədən gerçəkləşməyəcək. Öz məqsədinizə çatmazdan əvvəl



çoxlu maneələrə qalib gəlməli olacaqsınız. Sizin əleyhinizə olan insanlar həmişə olacaqdır. Siz bütün maneələri aşmalısınız. Heç vaxt cəsarətsizlik eləməyin, problemləri həll edərkən həmişə pozitiv olun. Hətta uduzduqda belə cəsarətsizlik etməyin. Heç kəs itirmədən nəyəsə nail ola bilməz. Pozitiv olmağa çalışın.

**Əlaqələrinizdən istifadə edin və insanlarla danışın**

Məqsədləriniz haqqında insanlarla danışmaqdan və onlara necə nail olmağı planlaşdırdığınızı söyləməkdən çəkinməyin. Başqa insanların da baxışı çox əhəmiyyətlidir və bir neçə məsələyə kömək edə bilər. Kömək almaq təkcə ağıllı və cəld olmaq deyil, eyni zamanda, ailənə və dostlarına sizin öyrənmək və məqsədə nail olmaq istədiyinizi göstərir.

**Röya Rasimqızı,**
***"İki sahil"***

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Birliyin Gəncə Regional qaz istismarı idarəsinin rəisi Fariz Məmmədova, atası

**Rza Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Qaynaq işlərinin sertifikatlaşdırılması şöbəsinin böyük mühəndisi

**İbrahim Həsənovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vüqar Rəhimzadə və Elçin Zaman SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Ümumi məsələlər üzrə müdir müavini Faiq Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"İki sahil" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Mətanət Babayevaya, bibisi qızı

**Rəqibə Məmmədovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Ali Məktəbin Böyük mühəndisi Səbuhi Məmmədova, əzizi

**Güləbatın Məmmədovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Ümumi məsələlər üzrə müdir müavini Faiq Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Qaz Emalı Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"EKOL Mühəndislik Xidmətləri" QSC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl Hacıyev
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 14.09.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8182
İndeks: 0151, Sifariş: 3036

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.